Bakı Avrasiya Universiteti

Aynur Qəzənfərqızı

Nağılların poetikası

(*Ali məktəblər üçün dərs vəsaiti*)

Bakı Avrasiya Universiteti Elmi Şurasının
qərarı ilə nəşr olunur

Bakı – 2020

Köhlən Nəşriyyatı

Buraxılışa məsul: **Nizami Əlisoy**

Elmi redaktor: **Elmira Məmmədova-Kekeç (fil. ü. e. d., dos.)**

Rəyçilər: **Oruc Əliyev (fil. ü. e. d., dos.)**

Seyfəddin Altaylı (fil. ü. e. d., dos.)

Korrektor: **Günel Haşımlı**

Yekun oxunuş: **Vüqar Məmmədzadə**

Aynur Qəzənfərqızı. Nağılların poetikası.
Bakı, Köhlən Nəşriyyatı – 2020, 102 səh.

© Aynur Qazanfarqızı / 2020
© Köhlən Nəşriyyatı / 2020
ISBN 978-9952-8411-0-7

facebook.com/kohlanpress
instagram.com/kohlanpress
twitter.com/kohlanpress
kohlanpress@gmail.com
(+994 55) 359-99-23

Müəllifin və ya "Köhlən" nəşriyyatının rəsmi razılığı olmadan kitabın və ya onun hər hansı hissəsinin təkrar çapı, yayılması, elektron və ya mexaniki üsulla surətinin çıxarılması və çoxaldılması Azərbaycan Respublikasının müəlliflik hüququ qanunvericiliyinə əsasən qadağandır!

İçindəkilər

REDAKTORDAN 5

ÖN SÖZ 7

Nağıl termini, onun anlamı, müxtəlif xalqlarda bu janrın adlandırılması 9

Mif və nağılın əlaqəsi 14

Nağıl və folklorun digər janrları 18

Nağılların toplanması, nəşri və tədqiqi tarixi 21

Nağılların toplanması Türkiyə folklorşünaslığında 23

Nağılların toplanması Qərb ölkələrində 24

Nağılların mənşəyi 26

Nağılların təsnifatı 30

Heyvanlar haqqında nağıllar 32

Sehrli nağıllar 41

V.Y.Proppun "Nağılların morfologiyası" əsərində sehrli nağılların tədqiqi 46

Məişət nağılları 53

Nağılların formaca bölgüsü: *Kumilyativ, yaxud zəncirləmə nağıllar* 58

Süjet, motiv və kontaminasiya anlayışları, nağılların təşkilində onların rolu 64

Nağıllarda səyyar (gəzərgi) süjetlər 70

Beynəlxalq nağil süjetləri. A.Aarne və A.Tompsonun süjet kataloqu 78

Azərbaycan folklorşünaslığında nağıl süjeti ilə bağlı araşdırmalar 81

Nağıllarda formul 83

Azərbaycan nağıllarının regional özəllikləri 92

Nağıl və yazılı ədəbiyyat 95

Qaynaqlar 97

Bəzi nağılların adları 102

REDAKTORDAN

Bakı Avrasiya Universitetinin "Ümumi filologiya" kafedrasının əməkdaşı Aynur Qəzənfərqızının hazırladığı "Nağılların poetikası" adlı dərs vəsaiti eyniadlı fənn proqramı əsasında hazırlanmışdır. Fənnin tədrisində təhsilalanlar üçün mühüm qaynaq olacaq dərs vəsaitində folklorun əsas janrlarından olan nağılların mənşəyi, təsnifatı, öyrənilməsi tarixi, digər janrlarla əlaqəsi, spesifik poetik xüsusiyyətləri, formullar sistemi kimi məsələlər zəngin elmi qaynaqlar əsasında araşdırılmışdır. Dərs vəsaiti sadəcə Azərbaycan nağılları və folklorşünaslığı əsasında tərtib edilməmiş, ingilis və türk folklorşünaslığını da əhatə etmişdir. V.Proppun "Nağılların morfologiyası" əsərindən çıxış edən müəllif sehrli nağıl qrupu üzərində xüsusi dayanmış, qəhrəmanın funksiyaları ilə əlaqədar olaraq geniş məlumat vermişdir.

Dərs vəsaitində nağıl motivləri də ayrıca mövzu kimi işlənilmiş, yüzlərlə nağıl mətni üçün səciyyəvi olan motivlər haqqında geniş bilgi verilmişdir. Eyni zamanda dünya və Azərbaycan folklorşünaslığında nağılların süjet kataloqları ilə bağlı da kitabda ətraflı məlumat yer almış, Anti Aarne, Stit Tompsondan başlayaq müxtəlif tədqiqatçıların mövcud nağıl mətnlərindən çıxış edərək hazırladıqları süjet kataloqları ilə bağlı bilgilər təqdim edilmişdir. Beləliklə, dərs vəsaitində nağılların poetikası ilə əlaqədar bütün məsələlərə aydınlıq gətirilməyə çalışılmışdır.

Dərs vəsaitində təhsilalanlara nağılların poetikası haqqında elmi məlumatlar verilməklə yanaşı, əlavələr hissəsin-

də tədris zamanı tələbələr üçün müəyyən nağıl mətnlərinin adları da təqdim edilmişdir.

Dərs vəsaitinin təhsilalanlar üçün mühüm elmi qaynaq olacağını düşünür, müəllifə yaradıcılıq uğurları arzulayırıq.

ÖN SÖZ

Kültür elə əzəmətli bir gücdür ki, tanklardan, toplardan belə çox təsir edir topluma. Kültürü və elmi inkişaf etmiş cəmiyyətin mənəvi dəyərlərini pozmaq da çətindir. Təsadüfi deyil ki, iki yüz il rus zülmündə və istismarında qalmış xalqımız öz kültürünü ən gözəl səviyyədə qoruya bilmişdir. Kültürün gücünün fərqində olan liderlər xalqları zəbt etmək üçün məhz kültürəl assimiliyasiyaya üstünlük vermişlər. Günümüzdə dövlətlər bir-birindən son texnoloji yenilikləri, yeni silahları, elmi kəşfləri oğurlayır. 1940-cı illərdə dünya dövlətləri atom bombasının sirrini oğurlamağa çalışırdı. Qədim dövrdə isə bu, daha çox süjetlərin oğurlanması ilə nəticələnirdi. "Kəlilə və Dimnə" əsərinin süjetinin Hindistandan oğurlanıb gətirilməsi üçün İran şahı Xosrovun Bəyruzəyə əlli dəvə yükü qızıl verməsi və lazım olarsa yenə də xərcdən çəkinməyəcəyini deməsi, nağılı hansı yolla olursa olsun, onun sarayına gətirməsini tapşırması o dövr üçün nağıl mətnlərinin nə dərəcədə əhəmiyyətli olduğunu göstərir. Bəyruzənin nağıl mətnini saraydan oğurlaya bilmək üçün necə ciddi cəhdlə illər boyu plan qurduğunu düşündükdə həmin mətnin hansı səviyyədə dəyərli olduğunu və sarayda necə qorunduğunu təsəvvür etmək olar. Bu da nağıl mətninin necə bir dəyərə malik olmasından xəbər verməkdədir (htpp: Kəlilə və Dimnə).

Buradan belə bir nəticəyə gələ bilərik ki, günümüzdə olduğu kimi əski çağda da kültürəl "savaşlar" mövcud idi. İşğal zamanı qalib ölkə liderinin işğal etdiyi ölkənin kitabxanalarını, ən gözəl sənət əsərlərini, alim və sənətkarlarını

öz ölkəsinə aparması da bir növ kültürəl işğal sayılırdı. Hətta bir xalqı öyrənmək, işğal edib zəbt altında tuta bilmək üçün onun kültürünü, xalqın sosial, psixoloji, iqtisadi vəziyyətini öyrənmək yetərli idi. Bu məsələlər isə özünü ən gözəl şəkildə nağıllarda ehtiva edir. Buna görə də nağılların xüsusi bir fənn kimi öyrənilməsi ideyası tamamilə məqsədyönlüdür. Dərs vəsaitimizdə nağıllar forma, məzmun, obraz xüsusiyyətləri ilə yanaşı, həm də tarixi aspektdən araşdırılmışdır.

Aynur Qəzənfərqızı
filologiya üzrə fəlsəfə doktoru, folklorşünas

Nağıl termini, onun anlamı, müxtəlif xalqlarda bu janrın adlandırılması

Nağıl nədir?

Nağıllar şifahi xalq ədəbiyyatının ən geniş yayılmış, qədim və zəngin janrlarından biridir. Azərbaycan dilində işlədilən nağıl ifadəsi "nəqletmə" sözündən əmələ gəlmişdir. Bu janr radio, televizor, mətbuat və internetin yayğın olmadığı zamanlarda – uzun qış gecələrində insanların bir araya toplaşıb nağıl söyləyəni dinləyərək gözəl və səmərəli vaxt keçirməsi üçün ən gözəl yol idi. Çünki nağılçı toplumun diqqətini çəkəcək mətnləri danışarkən həm də kütləyə əxlaq, mənəvi zənginlik də aşılayır. Bunun səbəbi odur ki, nağılların məzmunu əsasən xeyirxahlıq, yaxşılıq, gözəllik və s. kimi əməllərin təbliğinə həsr olunmuşdur.

Nağıl Türkiyə türklərində "masal", "hikaye", Balkan türklərində "mesel", "hekat", Türkmənistan, Özbəkistan, Qazaxstan, Qırğızıstan, Uyğur Muxtar Cümhuriyyətində "ertek", "ertegi", almanlarda "marchen", ingilislərdə "folktales," "tales", fransızlarda "contes", "favola", ruslarda "skazka" və s. terminlərlər adlandırılır.

Nağıl qeyri-adi qəhrəmanların başına gələn qeyri-adi hadisələri nəql edən, sadə xalqın təxəyyülünün məhsulu olan, bəzən uzun qaravəllilər, bəzən də özünəməxsus formullar ilə başlayan, tərbiyəvi əhəmiyyətli, sadə, axıcı dildə xalqın həyatı və məişəti, dünyagörüşü və inancları, arzu və xəyallarının əks olunduğu şifahi xalq ədəbiyyatı örnəyinə deyilir. Nağıllar bəzən qaravəlli adlandırılan girişlə başlayır.

Bu girişlər nağılın məzmunu ilə bağlı olmur. Məsələn, "*Hamam hamam içində, xəlbir saman içində, dəvə dəlləklik eylər, köhnə hamam içində, hamamçının tası yox, baltaçının baltası yox, orda bir tazı gördüm, onun da xaltası yox. Nağıl-mağıl bilmərəm, bilsəm də söyləmərəm, xandan gəlmiş nökərəm, dinmə böyrünü sökərəm*". Nağılda hadisələr uydurma olur. Hadisələrin uydurma olması nağılın ən xarakterik xüsusiyyətidir. V.P. Anikin nağılın digər janrlardan fərqini uydurmanın xarakterində axtarmağı, ona həqiqətlə əlaqəsinin olmaması nöqteyi-nəzərindən, tarixi mənşəyi və ideya-bədii funskiyası cəhətdən baxmağı təklif edir (Аникин В., 1971:102). Novikov da nağılın əfsanəvi uydurma olması fikrini müdafiə edir (Новиков Н., 1974:14). Bu fikrə həmçinin M.H.Təhmasib də tərəfdaşlıq edir (Təhmasib M., 1972;60).

Müasir tədqiqatçılardan Oruc Əliyev də nağılın xalq yaradıcılığının epik məhsulu olub, nəsildən-nəslə keçərək yaşayan, xalqın həyat, məişət tərzini, tarixi ənənələrini və cəmiyyətdəki ictimai ziddiyyətləri qabarıq halda, fantastik bədii uydurmalar vasitəsilə əks etdirən, sonu əsasən nikbin ovqatla qurtaran bir janr olduğunu vurğulayır (Əliyev O., 2001:10).

Nağılın əvvəlində *"Biri vardı, biri yoxdu"*, sonunda isə *"Göydən üç alma düşdü: biri mənim, biri özümün, biri də nağıl deyənin"* sözləri işlənir. Başlanğıcda və sonluqda verilən həmin epik formullarla yanaşı, qəhrəmanlarla, hadisələrlə bağlı formullardan da istifadə olunur. Məsələn, *"Qız nə qız, görən bunun camalına heyrandı, qaş qara, gözlər sürməyi, boyu sərv..."*, *"Dərələrdən sel kimi, təpələrdən yel kimi, badi-sərsər ki-*

mi", "Dağların dabanıynan, yolların qırağıynan, ayaq üzəngidə, diz qabırğada..." və s.

Nağıllarda mövzu, hadisə, yer, zaman və s. anlayışları özünəməxsusluğu ilə seçilir və digər bütün janrlardan fərqlənir. Bunu aşağıda daha dəqiq göstərə bilərik:

a-Mövzu: Nağıllarda hər insanı maraqlandıran dünyəvi dəyərlər və mövzulardan bəhs edilir. Xüsusilə uşaqlara mənəvi keyfiyyətlər aşılanır. Bundan başqa nağıl mətninin içində iştirak edən obrazların, hadisələrin təhlili də verilir. Haqsızlığa qarşı haqlının mübarizəsi mütləq qalib gəlir.

b-Hadisə: Nağıllar, əsasən, "hadisə"lərdən ibarət olur. Hadisələr isə təxəyyülün məhsulu olur. Bu qeyri-adi hadisələr göstərir ki, nağıllarda "imkansız" bir şey yoxdur. Hər şey mümkündür.

c-Yer: Nağılda müəyyən yer anlayışı yoxdur. Burada əsasən xəyali yer götürülür və hadisələr burada cərəyan edir. Məsələn, Qaf dağının arxasında bir ölkə, yerin altı, yerin üstü, pərilər diyarı. Bəzi hallarda Misir, Bağdad, Hindistan kimi yer adları çəkilir. Ancaq burda çəkilən yer adları əsasən şərti xarakter daşıyır. Söyləyici əsasən macəraların, olayların baş verdiyi Bağdadı, əfsanələr diyarı Hindistanı, tarixilik qoxan Misiri, gözəlliklər diyarı İsfahanın adını ona görə çəkir ki, bu yerlər məşhur və cəzbedicidir. Nağıllarda bu yerlər mücərrədlik xüsusiyyəti daşımaqdadır.

d- Zaman: Nağılda zaman da müəyyən deyil. Keçmiş bir zamandan danışılır, ancaq bu zaman da müəyyən deyil. Nağıllarda hadisələr əsasən nəqli keçmiş zamanın ("mış") şəkilçisinin köməyi ilə danışılır. Bu da hadisələrə qeyri-mü-

əyyənlik bəxş edir. Məsələn: "Biri var imiş, biri yox imiş. Əvvəl zaman içində, xəlbir saman içində bir məmləkətin birində bir şah var imiş". Buradakı təkərləmələr zamanın müəyyənsizliyini göstərir.

e-Obraz: Nağıl qəhrəmanları qeyri-adi xüsusiyyətlərə malik ola bilər. Nağıllarda "pəri, div, cücə, ifritə, qulyabani, şahmaran, Simurq quşu" kimi obrazları görə bilirik. Bəzən real həyatda görə bilməyəcəyimiz obrazlar nağıllarda qarşımza çıxa bilər. Obrazlar burada ya yaxşıdır, ya da pisdir. Yaxşılar hər zaman yaxşılıq edər, pislər isə pisliklə məşğul olar. Yaxşılar nağılın sonunda hökmən qələbə çalır, pislər isə uduzur, yaxud ifşa olunaraq cəzalanır.

ə-Məqsəd: Nağılın əsas məqsədi tərbiyədir. Nağılın süjet xətti elə qurulur ki, burada dinləyici öz üzərinə düşən payı götürür, ibrət alır. Nağıllarda edilən pisliklər tənqid atəşinə tutulur, yaxşı və yaxşılıqlar isə təbliğ olunur. Buna görə də nağıllar ən yaxşı tərbiyəvi mətnlərdir.

Nağıllarda həyati problemlər, xalqın arzu və istəkləri möcüzəli biçimdə ifadə olunur. Bu mətnlərdə dost və düşmən, ümumiyyətlə, bütün xarakteristikası ilə tanıdılır, hadisələr ümumiləşdirilir, universallıq özünü göstərir. Yəni haqqında bəhs edilən hadisə Misirdəmi, Çindəmi və ya İran şəhərlərinin birindəmi baş verir-versin, eşidən üçün maraqlıdır. Nağıllarda bir hadisədən bəhs edərkən qəhrəmanın *"doqquz ölkə arxasından"* gəldiyi söylənilir, nağılçı onu dağlardan yel kimi, dərələrdən sel kimi, badeyi-sərsər kimi atın üstündə gəzdirir, tipik olaraq, söyləyici *"biri vardı, biri yoxdu, Allahdan başqa heç kəs yoxdu, bir paçcah vardı, bunun üç oğ-*

lu vardı", "Günlərin birində bir yoxsul kətti getmişdi tikan qırmağa" və s. şəklində təqdim edir.

Tərkibində bu kimi qəlibləşmiş ifadələr olan nağıllar hekayə və rəvayətlərin əksinə olaraq dinləyicini inandırmağa çalışmır.

Nağılları rəvayət, qaravəllilər, lətifə, bəzən bir sıra məhəbbət dastanları ilə eyniləşdirməyə çalışan tədqiqatçılar var, ancaq bu janrlar arasında oxşar cəhətlər çox olsa da, onları eyniləşdirmək doğru deyildir.

Belə ki, nağılın dominant estetik funksiyalı şifahi xalq nəsri olması onu əsas funksiyası informativlik olan digər şifahi hekayələrdən (rəvayət, qaravəllər, lətifə, bəzi məhəbbət dastanları) fərqləndirir. Bununla yanaşı, təhkiyənin qeyridəqiqliyi, yəni uydurma xarakteri, şifahi hekayələrin əyləndirmə və öyrətmə məqsədilə söylənməsi onun folklor mətnləri arasında nağıl sırasına daxil olmasına imkan verir (Əfəndiyev P., 1992:172).

Mif və nağılın əlaqəsi

Mif və nağılın əlaqəsini müəyyənləşdirmək üçün əvvəlcə nağıl və mifin ayrı ayrılıqda tərifləri müəyyənləşdirək. Nağıl haqqında yuxarıda kifayət qədər danışdıq.

Bəs mif nədir?

Mif termini yunanca "*mûthos*", sözündən yaranmışdır və nəql edilmiş, danışılmış mənasındadır. Homer və Hesiod bu ifadəni uydurma, yaxud gerçək olduğunu nəzərdə tutmadan "hekayənin duyğusu" adlandırmışlar.

Qədim yunan ədəbiyyatında mifologiya (*muthologi)* terminini ilk dəfə istifadə edən Platondur. O, bu terminin yaranma yollarını belə göstərmişdir: kültürün mifi, miflərin toplanması, onların danışılması, ortaya çıxması və araşdırılması.

19-cu əsrə qədər mif sözü işlədilməsə də, mifologiya terminindən geniş şəkildə istifadə edilmişdir. [*The Concise...,* 1986:307.]

Mif sözünün yerinə isə antik yunan ədəbiyyatındakı mifləri ifadə etmək üçün nağıl termini istifadə edilmişdir. Məsələn, Samuel Consonsun 1755-ci ildə yazdığı lüğətdə mif sözü olmasa da, mifologiya, mifoloji ifadələri var. Eyni zamanda "fable" – nağıl sözünün də tez-tez mif əvəzində işləndiyini görə bilərik (Samuel J. 1755:746).

"Fable"ın – (nağılın) açıqlaması isə həmin lüğətdə belə verilir: nağılın sistemi; bütpərəst dünyada allahların davranışlarını izah edən hekayələr. Mifologiyanın sanballılığı müqayisə olunmasındadır: uzaq diyarlarda baş verən olaylar;

bu olaylar bir zamanlar – Nuh əyyamından qalma zamanda, utopiya məkanında baş verib ['Mythology'... 1755: 1345].

Araşdırıcılar 19-cu yüzillikdən mifi "fable"dən – (nağıldan) fərqləndirir və müstəqil elm sahəsi kimi öyrənməyə başlayırlar. Qeyd edək ki, alimlər mifin necə adlanması barədə ortaq məxrəcə gəlməmiş və müxtəlif təriflər vermişlər.

"Mifi narodov mira" kitabında isə mifologiyanın yaşanıb unudulmuş hadisələrdən ibarət və bəzən də tamamilə təxəyyülün məhsulu olduğunu, dini yaxud siyasi liderlər tərəfindən uydurulub yayıldığını qeyd edirlər (Мифы народов..., 1987:11).

Doğan Kaya mifi belə təsvir edir: "Mif dünyanın, heyvanların, bitkilərin və insanların yaradılışı, ölümün mənşəyinə aid ilkin bilgilərdir və onlarla əlaqəli inancları nəql edir. Dünyada baş verənləri simvollaşdırır və formalaşdırır. Başqa cür desək, mif şüurun və düşüncənin məhsuludur, yəni dialektik məntiqin nəticəsində yarandığı üçün gerçəkdir" (Türk halk..., 2007:528-529).

Sovet folklorşünaslığında mifə verilən tərif daha çox materialist dünyagörüşünün nəticəsidir: təbiət hadisələrinin, kortəbii qüvvələrin, səma cisimlərinin insanların xəyalında, təsəvvür və düşüncələrində müəyyən bir şəklə salınması, gah insanlara, gah da tanrılara bənzər təsvir olunmasıdır. Mif şifahi xalq ədəbiyyatının ən qədim janrlarından biri hesab olunur. Bu janrı ibtidai insanların ibtidai təsəvvür və anlayışları yaratmışdır (Hacıyev A., 1996:270). Bu sitatda ibtidai insan anlayışı, fikrimizcə, qəbuledilməzdir. Qəbul etsək, o zaman ibtidai insan, yəni "zəka səviyyəsi

aşağı", "müasir insandan daha az düşünmə qabiliyyətinə malik insan" fikrini də qəbul etməliyik. Halbuki bəşəriyyət hələ də piramidaların, asma bağların sirrini açmamışdır. İbtidai insan anlayışı onların inanc sisteminə görə yaranmışsa və müasir insan əgər doğrunu tapmışsa, dünyamızdakı dinlərin birdən çox olmasını açıqlamaq da mümkün olmaz. Deməli, "ibtidai insanın təsəvvürü" ifadəsi əvəzinə "qədim dövrdə yaşamış insanın təsəvvürü" ifadəsinin işlənməsi daha doğrudur.

Bizcə, mif qədim insanın inancında, kültüründə mövcud tanrılar, dünya və insanın yaradılmasına dair təsəvvürlər, əfsanələr onların mənalarını təhlil və təsnif edən elm sahəsidir.

Bütün bu dediklərimizdən belə bir nəticəyə gəlirik ki, mif ilə nağılın əlaqəsi hər ikisinin folklor mətni olması, məzmunun uydurma olmasından başqa, həm də uzun müddət hər iki janrın bir-birinə qarışdırılmasından ibarətdir.

Nağıllar necə toplanmalıdır

Hər bir folklor janrının toplanması məsələsi çox önəmlidir. Belə ki, toplanmış mətnin zərər görməməsi, orijinallığının pozulmaması lazımdır. Nağılların toplanmasında aşağıdakı xüsusiyyətlərə özəlliklə fikir verilməlidir:

Nağıllar toplanarkən onun hansı bölgədən olmasına qadın, kişi, yaşlı, uşaq, gənc olmasına fərq qoymadan toplanılmalıdır. Kənd, şəhər nağılları eyni dərəcədə əhəmiyyət daşıyır. Çünki hər iki bölgənin xüsusiyyətləri, məişəti, dünya görüşü, inancı bu nağıl mətnlərində eyni dərəcədə öz əksini tapmışdır. Önəmli olan doğru söyləyicini tapmaqdır. Bundan başqa, nağılın variantlarının tapılıb toplanması da önəmlidir. Qeyd edim ki, nağılın doğru tədqiqatı məhz onun çoxvariantlı mətnləri üzərində mümkün olur.

Nağıl toplandığı zaman diqqət yetirməli olduğumuz başqa bir xüsusiyyət isə onun orijinallığının, dil-üslub xüsusiyyətlərinin olduğu kimi saxlanmasıdır. Bununla da nağılın hansı bölgədən toplanmasını müəyyənləşdirməklə yanaşı, dilin zənginliyinin də qorunub saxlanması mümkün olacaqdır. Daha sonra nağıl toplandığı zaman söyləyicinin adı, soyadı, məsləyi, yaşı, yaşadığı bölgə, nağılı eşitdiyi şəxs haqqında mümkünsə məlumat almaq, nağılın qeydə alındığı tarix, toplandığı ərazi və s. kimi məlumatlar əldə edilməlidir. Bu, nağılların daha doğru və tutarlı şəkildə arxivlənməsinə şərait yaradacaqdır.

Ev tapşırığı: Tələbələr seminar dərsi üçün ən az iki nağıl mətni toplamalıdırlar.

Nağıl və folklorun digər janrları

Bəzi folklor janrları var ki, nağıl ilə bənzərlik təşkil edir. Bu mətnlər nağıllardan çox da fərqlənmir. Ancaq hər bir janrın özünəməxsus xüsiyyətləri vardır. Nağılları digər janrlardan fərqləndirmək üçün əvvəla onun xüsusiyyətlərini müəyyənləşdirmək lazımdır. Bəzən bu xüsusiyyətlər birdən çox janrda mövcud ola bilər. Məsələn, Erna Pomerantseva belə hesab edir ki, folklorun başqa janrlarından fərqli olaraq nağıl quraşdırılmış uydurmadır və ona uydurma kimi baxmaq lazımdır (Померанцева Э., 1966:137). Əgər biz nağıla sırf uydurma mətn kimi baxsaq, o zaman rəvayət, əfsanə, dastan və s. janrlar ilə fərqləndirə bilmərik. Janrlar arasındakı fərqləri qavraya bilmək üçün hər bir janrın özünəməxsus xüsusiyyətlərini dəqiqləşdirməliyik. Nağıllar ən çox rəvayət, məhəbbət dastanları, qaravəlli, lətifələr ilə oxşardırlar.

Maraqlıdır ki, rəvayətlər uzun müddət nağıl janrına daxil edilmişdir. Rəvayətlər həcmcə kiçik və yığcam olur, tarixdə baş vermiş hadisələr əsasında yaranır. Nağıl ilə rəvayətləri fərqləndirən xüsusiyyət də məhz budur (Əfəndiyev P., 1992:174). Əfəndiyevin fikrinə haşiyə çıxmalıyıq ki, rəvayətlər dini hadisələr əsasında yaxud dini şəxsiyyətlər haqqında yaranmış mətnlərdir. Rəvayətlərdə dinləyicini inandırmaq cəhdi açıq şəkildə hiss olunur və bu onu nağıl mətnlərindən fərqləndirən xüsusiyyətdir.

Son zamanlar dini nağıllar adlı bölgü də verilir ki, bu rəvayət və nağıl mətnlərinin anlaşmasında qarışıqlıq yarat-

maqdan başqa bir şey deyil. İlkin Rüstəmzadə "Azərbaycan nağıllarının süjet göstəriciləri" (2013) adlı kitabında "dini nağıllar" bölgüsü aparmışdır. Burada qeyd etməliyik ki, nağılların rəvayət, əfsanə və miflərlə yaxınlığı bəzən tədqiqatçıları da əsas fikirdən yayındıra bilər.

Qaravəlli[1] epik növün satirik, yumoristik üslubda yaranan bir janrıdır. Qaravəlli hadisə və əhvalatların gülməli yumoristik yolla təsviridir. Lətifə və nağıl arasında bir janrdır. Qaravəllilərdə nağıllara məxsus fantastika, uydurma, sehr olmur (Əfəndiyev P., 1992:174). Bundan başqa, bəzi qaravəllilər satirik nağılları xatırladır. Ancaq qaravəlli real hadisə əsasında yaranır. Həcm etibarilə lətifədən böyük olur.

Lətifələr nağıllara nisbətən kiçikdir, əsas məqsədi güldürməkdir, çox vaxt ictimai çatışmazlıqlara işarə edir. Satirik nağıl ilə lətifənin əsas fərqi nağılların xüsusi formul ilə başlaması və bitməsidir. Bundan başqa, nağıllarda süjet xətti geniş, obrazlar müxtəlifdir. Lətifələrdə isə obraz sayı çox olmur. Məsələn, Bəhlul Danəndə lətifələrindən "Bişmiş yumurtadan da cücə çıxarmış" adlı məşhur lətifəni burada misal göstərə bilərik. Lətifədə tamahkar qarı, ədalətsiz şah, zülm edilən tacir və onlara ibrət dərsi verən Bəhlul obrazları iştirak edir. Mətndə haqsızlığa uğramış tacirə dəstək olmaq üçün tamahkar qarının sözünə inanmış şaha ibrət dərsi verilir. Şah səhvini anlayır. Burada da sonda nağılda olduğu kimi ibrətamiz nəticə çıxarılsa da, nəqlində təhkiyənin ol-

[1] Nağılların giriş formulu olaraq istifadə olunan qaravəllilərdən fərqlidir. Söhbət müstəqil folklor janrından gedir.

maması, formulların işlədilməməsi səbəbləri mətnin nağıl yox, lətifə kimi qəbul olunmasına təkan verir.

Bəzi məhəbbət dastanları da satirik nağılları xatırladır, ancaq bu iki janr arasında ciddi fərqlər var. Dastanlar mənzum və mənsur hissələrdən ibarət olur. Nağıllar isə əsasən təhkiyədən ibarətdir. Bəzən nağıllarda mənzum hissə ola bilər. Ancaq bu fərqli şeirdir. Dastanda işlənən şeir daha çox aşıq yaradıcılığına aid olur. Bundan başqa, məhəbbət dastanları ustadnamə ilə başlayır, duvaqqapma ilə bitir. Məsələn, "Lətif şah" dastanı Aşıq Şennik tərəfindən nağıl əsasında yaradılmışdır, ancaq orada nəzm hissəsinin olması, dastanı nağıldan fərqləndirir.

Ev tapşırığı: Tələbələr seminar üçün lətifə, rəvayət, məhəbbət dastanı, qaravəlli öyrənərək nağıllar ilə müqayisəsini göstərəcək slayd şou hazırlamalıdırlar.

Nağılların toplanması, nəşri və tədqiqi tarixi

Tarix boyu şeirə və şeir yazana sayğı çox olmuşdur. Bunun bir sıra səbəbləri var. Ən başlıca səbəb odur ki, şeir yazmaq üçün ilham, istedad sahibi olmaq lazım gəldiyi üçün şeirə də, onu yazana da xüsusi hörmət olunmuşdur. Buna görədir ki, bir sıra lirik janrlardan fərqli olaraq epik janrlar yazıya alınıb saxlanmamışdır. Ehtimal ki, bu səbəbdən də Azərbaycan nağıllarının toplanması XIX əsrin sonlarından başlanmış, XX əsrin əvvəllərindən etibarən yerli ziyalıların bu işdə yaxından iştirak etməsi ilə daha da sürətlənmişdir. XX əsrin əvvəllərində "Məktəb", "Dəbistan" jurnallarında çox sayda nağıllarımız yayımlanmışdır. Bu nağıllarda, əsasən, uşaqların yaş xüsusiyyəti, bir sıra tərbiyəvi məsələlər nəzərə alınmışdır (Hüseynli S., 1995).

XIX əsrdə toplanan materiallar ilk dövrlərdə rus dilinə tərcümə olunaraq o dövrün mətbu orqanlarında, xüsusən də SMOMPK məcmuəsində nəşr olunurdu. 1930-cu ildə L.Lopatinskinin topladığı materiallar əsasında A.Baqrinin tərtib etdiyi "Azərbaycanın və qonşu ölkələrin folkloru" (Багрий А., 1930), 1935-ci ildə A.Baqri və H.Zeynallının tərtib etdiyi "Azərbaycan türk nağılları" (Bax: Əfəndiyev P. 1992:176) toplusu işıq üzü görür.

Bundan başqa, A.Sübhanverdixanovun, Y.Çəmənzəminlinin, H.Əlizadənin, Ə.Babayevin də bu sahədə xidmətləri çox olmuşdur.

Nağılların toplanması ilə 30-cu illərdə M.Təhmasib, Ə.Axundov, 40-cı illərdə isə S.Seyidov məşğul olmuşdur. Bu toplamaların nəticəsi olaraq 1941-47-ci illərdə Elmlər

Akademiyası Nizami adına Ədəbiyyat İnstitutunun 3 cildlik (Bax: Əfəndiyev P. 1992:176), daha sonra yenə eyni qurumun 1960-64-cü illərdə 5 cildlik nağıl kitabları nəşr edilir (Bax: Əfəndiyev P. 1992:176).

1970-ci ildə isə Ə.Axundovun iki cildlik "Azərbaycan nağılları" toplusu çap olunur (Bax: Əfəndiyev P. 1992: 176). Azərbaycan müstəqillik qazandıqdan sonra şifahi irsin toplanmasına maraq daha da artır. 1993-cü ildə Daşkəsəndən toplanmış folklor örnəkləri əsasında "Şah Abbasın arvadı", Qərbi Azərbaycandan toplanmış nümunələr əsasında "Vətən qürbətdə qaldı", 1994-cü ildə Şamaxı, Dərbənd, Gəncə və Qazaxdan toplanmış nağıllar əsasında "Allah yıxan evi qızlar tikər", 1995-ci ildə Laçın və Qubadlıdan toplanmış nümunələr əsasında "Bu yurd bayquşa qalmaz" topluları çap olunur. Xüsusən də son illərdə AMEA-nın nəzdində Folklor İnstitutu təşkil olunduqdan sonra şifahi irsin toplanması və nəşri sahəsində böyük bir canlanma yaranır. Təkcə onu demək kifayətdir ki, bu İnstitutun xidmətləri sayəsində Azərbaycanın müxtəlif bölgələrindən toplanan folklor örnəkləri əsasında Azərbaycan folkloru antologiyasının on altı cildi, Aəzrbaycan folklor külliyyatının isə otuz cildi işıq üzü görmüşdür.

Sovet dönəmində S.Seyidovun "Azərbaycan nağıllarında ictimai haqsızlıq əleyhinə müharibə" və L.Həsənovanın "Azərbaycan satirik məişət nağılları" adlı tədqiqat işi aparılıb. Son illərdə isə "Azərbaycan nağıllarının poetikası" (2001) kitabı ilə Oruc Əliyev və "Azərbaycan nağıllarının süjet göstəricisi" (2013) adlı kitabı ilə İlkin Rüstəmzadə, "Ənənəvi nağıl formulları" (2014) adlı kitabı ilə Vəfa İs-

gəndərzadə və "Azərbaycan nağıllarında sehrli qəhrəman" adlı kitabı ilə Əfzələdin Əsgərin adını nağıl tədqiqatçıları sırasında çəkə bilərik.

Nağılların toplanması Türkiyə folklorşünaslığında

Türkiyədə nağılların toplanmasına XIX əsrin sonlarında "Billur köşk masalları" (Alangu T., 2017) adlı kitab ilə başlanmışdır. Daha sonra 1912-ci ildə K.D. olaraq adının baş hərflərini göstərmiş xanım yazarın "Türk Masalları" adlı 317 səhifədən ibarət nağıl kitabı çap olunur (Bax: Hayvan masal..., 2010:10). Bundan başqa Ziya Gökalp da nağılları toplayıb nəşr etdirmiş, həm də nəzmə çəkməklə daha geniş kütlələrin oxumasına şərait yaratmışdır. Z.Gökalp toplayıb nəşr etdirdiyi nağılları bir araya toplayaraq 1922-ci ildə "Altın Işık" adlı kitabda çap etdirmişdir (Gökalp Z., 2007). Müasir dönəmdə türkiyəli nağıl tədqiqatçılardan Ali Berat Alptəkin və Saim Sakaoğlunun adlarını çəkə bilərik.

S.Sakaoğlu "Masal araştırmaları" (2007) kitabında nağılların giriş formullarını geniş şəkildə işləyib hazırlamışdır. Bundan başqa, nağılların toplanması və yayınlanmasında da onun böyük əməyi vardır.

A.B.Alptekin "Taşeli masalları" kitabında Türkiyədə ilk dəfə nağılların sistemli şəkildə araşdırılmasına nail olmuşdur. Müəllif kitabda o günə qədər nağıl ilə əlaqədar aparılmış bütün tədqiqatlar haqqında məlumat vermişdir. Bundan başqa, A.B.Alptekin 2010-cu ildə "Hayvan masalları" kitabını nəşr etdirərək topladığı nağıllarını yayımlat-

mışdır (Hayvan masal..., 2010). 2013-cü ildə "Halk masalları" kitabında isə folklorşünas alim daha geniş nəzəri tədqiqat aparmışdır (Halk masal..., 2013).

Nağılların toplanması **Qərb ölkələrində**

Avropada nağılların ilk dəfə tədqiqi 17-ci əsrdə fransız Jan La Fontenin adı ilə bağlıdır. 1668-ci ildə yayımladığı "Nağıllar" adlı kitabı 12 hissəyə bölünür və burada 239 nağıl yer almışdır. Kitabda "Toyuq və qızıl yumurtaları", "Meyit daşıyan eşşək", "Tənək koluna dolaşan maral", "İlan və quyruğu", "Dovşan ilə kəklik", "Qartal ilə bayquş" kimi məşhur nağıllar yer almışdır.

Avropada nağılların toplanması və nəşrində Şarl Perronun (Çarlz Parrault) da xidmətləri böyükdür. La Fontenin müasiri olan Perro "Contes de ma Mere Loye" ("Loy ananın nağılları") adlı səkkiz nağıl mətnindən ibarət kitab yayınlatmışdır.

Almaniyada Yakov Qrimm, Açim von Arnim, Klemens Brentano, Bettina Brentano kimi tədqiqatçıların da adlarını sadalaya bilərik.

Yohan Qotfried Herder nağılların tərbiyəvi əhəmiyyətini araşdırmış, Benfey isə mənşəyini öyrənməyə çalışmışdır.

Skandinaviya ölkələrindən isə finlandiyalı Anti Aarne, Oskar Hekmen, İsveçli Von Sidov və digərlərinin adlarını nağıl tədqiqatçıları sırasında sadalaya bilərik.

Rusiyada nağılların toplanması işinə 17-ci əsrdən başlanmışdır. Rusiya folklorşünaslığında nağılların toplayıcıları

sırasında Afanasyevin, tədqiqatçıları sırasında Propp, Meletinskinin adını ilk sırada çəkmək lazımdır.

Ev tapşırığı: Seminar üçün Azərbaycan və digər ölkələrdə nağılların toplanmasını müqayisəli şəkildə göstərəcək slayd-şou hazırlansın.

Nağılların mənşəyi

Nağılların mənşəyi məsələsi uzun zaman nağılşünasların əsas araşdırma obyekti olmuşdur. Nağılların necə yaranması məsələsi ilə yanaşı, Şərqdənmi Qərbə, yoxsa Qərbdənmi Şərqə yayılması fikri də mübahisələrə səbəb olmuşdur. Qeyd edək ki, bu mövzuda tədqiqatçıların gəldiyi nəticələr müxtəlifdir. Onlardan ən məşhuru mifoloji nəzəriyyə, tarixi-iqtibas (hindoloji), antropoloji (etnoqrafik) nəzəriyyədir.

Mifoloji nəzəriyyə

Mifoloji görüşə görə, nağılların mənşəyində miflər durur. Bu baxışı ilk dəfə Yohan Volfqanq von Höte irəli sürmüşdür. Y.Hötenin iddiasına görə bütün nağılların mənşəyində hind mifləri durur. Bu nəzəriyyəni həm də Gerard Qrimm, Georg Dasent, Georg Koks, Maks Müller də dəstəkləmişlər (Bax: Halk masal..., 2013:10).

Yakov Qrimm "Alman mifologiyası" adlı məşhur əsərində xalqların əsatirlərini müqayisəli şəkildə təhlil etmişdir. Bu əsatirlər arasındakı oxşarlığı həmin xalqların qohumluğunda görürdülər. Qrimm qardaşları belə bir nəticəyə gəlmişdilər ki, nağıllar ilk öncə Allahlar haqqında əsatir kimi yaranmışdır. Bununla da onlar dini bədii yaradıcılığa təkan verən bir qüvvə kimi təsvir edirdilər. Bu səbəbdən də nağılların təməlində əsatirləri axtarırdılar (Əfəndiyev P., 1992:174).

Georg Dasent, Georg Koks, Max Müller, Feodor Buslayev, Aleksandr Afanasyev də bu nəzəriyyənin tərəfdarları kimi çıxış edirdilər və bunların hər birinin görüşü idealist fəlsəfəyə və metodoloji cəhətdən idealizmə əsaslanırdı.

Azərbaycanda bu nəzəriyyənin tərəfdarları Yusif Vəzir Çəmənzəminli və qismən Məhəmmədhüseyn Təhmasib olmuşdur.

Türkiyəli tədqiqatçı Ali Berat Alptəkin bu nəzəriyyəni dəstəkləsə də, yenə də nağılların təməlində tamamilə miflərin olmadığını iddia edir (Halk masalları...2013:10).

Tarixi-iqtibas, yaxud hindoloji nəzəriyyə

Tarixi nəzəriyyənin əsasını XIX əsrdə Silvestr Sesi ilə Teodor Benfey qoymuşdur (Sakaoğlu S., 2007:7). Bunlar Qrimm qardaşları kimi nağılların mənşəyini Hindistana bağlayırlar, ancaq buraya həm də onu əlavə edirlər ki, bu nağıllar siyasi, iqtisadi, hərbi əlaqələr vasitəsilə Avropaya gətirilə bilər. Bu nəzəriyyənin tərəfdarlarına görə, nağılların mənşəyi Vedalar deyil, Paçatantradır. T.Benfey nağılların mənşəyini yazılı mətnlərə bağlayır, müqayisəli araşdırmaları iqtibas nəzəriyyəsi ilə əlaqədə izah edirdi. O, Şərq və Qərb nağıllarında süjetlər arasındakı bənzərliyi məhz mədəni-iqtisadi əlaqələrdə axtarmağa çalışmış və bu əlaqələrin kökünün Makedonyalı İsgəndərin yürüşləri ilə başladığını, səlib yürüşləri ilə davam etdiyini göstərmişdir. T.Benfey də, S.Sesi də nağıl süjetlərinin və motivlərinin Şərqdə yaranıb dünyaya yayıldığını sübut etməyə çalışmışlar.

Süjetlərin Şərqdən Qərbə yayıldığını göstərmək üçün T.Benfey üç yol təklif etmişdir. Maraqlıdır ki, T.Benfeyin təklif etdiyi üç yol Azərbaycan və Türkiyə folklorşünaslığında çox fərqlənir. Həmin yollar aşağıdakı cədvəldə veririk:

	Azərbaycan folklorşünaslığında:	Türkiyə folklorşünaslığında:
I yol	Aralıq dənizi vasitəsilə İspaniyaya qədər uzanır və yəhudilərlə ərəblərin müştərək Mavritan mədəniyyətini formalaşdırır (Əfəndiyev P., 1992:174).	Nağıllar X əsrdən öncə şifahi ənənə ilə Avropaya keçmişdir (Halk masal...., 2013:10).
II yol	Hindistandan Sicilya adalarına, oradan da İtaliyaya və mərkəzi Avropaya qədər uzanır və Avropa mədəniyyətini şəkilləndirir (Əfəndiyev P., 1992:175).	X əsrdən öncə İslamın təsiri ilə Bizans, İtaliya və İspaniyadan keçərək Avropaya yayılmışdır (Halk masal..., 2013:10).
III yol	Səlib yürüşləri ilə Şərqlə Qərbin yaxınlaşması nəticəsində mifoloji motivlər, nağıl süjetləri Türküstan yolu ilə Qafqazdan keçərək Kiçik Asiya üzərindən Avropaya çatır (Əfəndiyev P., 1992;175).	Buddistlərin hazırladığı məhsullar Monqolların vasitəsilə Çin və Tibetdən keçərək Avropaya çatmışdır (Halk masal..., 2013:10)

Etnoqrafik, yaxud antropoloji nəzəriyyə

Tarixi, mifoloji nəzəriyyələrin açıqlaya bilmədiyi bir çox məsələlər var ki, bunları məhz etnoqrafik, digər adı ilə antropoloji məktəb ortaya çıxarır. Bu nəzəriyyə də XIX əsrdə Avropada meydana çıxır. Antropo – insan, logiya elm deməkdir. Bu nəzəriyyənin ilk müddəaları ingilis alimi Eduard Teylor və Şotland alimi Andryu Lenq tərəfindən ortaya atılmışdır. Bu alimlər süjetlərin öz-özünə yaranması fikrini

irəli sürdülər. Göstərdilər ki, dünyada elə xalqlar var ki, bunlar arasında nə dil qohumluğu, nə ərazi yaxınlığı olmuşdur, ancaq bu xalqların oxşar süjetləri var. Bunun da səbəbi bütün xalqların eyni mənəvi psixologiyaya sahib olmalarıdır. Yəni süjetlər bir-birindən xəbərsiz dünyanın müxtəlif yerlərində müstəqil şəkildə yaranır. Bu süjetlər arasındakı bənzərliyin səbəbi isə dünyanın hər yerində insanoğlunun eyni psixologiyaya sahib olmasıdır. Bu fikri bir az da açsaq belə deyə bilərik ki, süjetlərin yaranmasına səbəb olan gəlin-qaynana, ər-arvad, oğlan-qız münasibətləri dünyanın hər yerində eyni psixologiya nəticəsində ortaya çıxır. Odur ki, süjet bənzərliyinin də səbəbi insanların antroploji cəhətdən eyni psixologiyaya sahib olmalarıdır.

Ev tapşırığı: Nəzəriyyələr arasındakı fərqləri göstərəcək slayd-şou hazırlamaq.

Nağılların təsnifatı

Nağılların təsnifatı haqqında fikirlər müxtəlifdir. Folklorşünaslar nağılların bölgüsünü müxtəlif prinsiplər əsasında apardıqlarından ortaq məxrəcə gələ bilməmişlər.

Yusif Vəzir Çəmənzəminli "Azərbaycan nağıllarının əhval-ruhiyyəsi" adlı məqaləsində nağılları üç qrupa bölür:

1. Zərdüştilik fəlsəfəsi ilə bağlı nağıllar;
2. Tarixə yanaşan nağıllar;
3. Cocuq nağılları (Çəmənzəminli Y. 2005:281).

Müəllif bu zaman hər başlıq altında nağılların motiv və süjet tərkibi haqqında öz mülahizəsini irəli sürür. Daha sonra Hənəfi Zeynallının verdiyi təsnifatda isə nağıllar mövzusuna görə 6 qrupa bölünür:

1. Heyvanlar haqqında nağıllar.
2. Əsl nağıllar mənasında olan fantastik nağıllar.
3. Yaşayışdan alınan nağıllar.
4. Qaravəllilər.
5. Rəvayətlər və tarixə qarışan nağıllar.
6. Təkərləmələr.

H.Zeynallı da həmçinin öz bölgüsü zamanı nağılların süjet və motiv tərkibi haqqında fikirlərini bildirmişdir. Sovet dövrü folklorşünası Məhəmmədhüseyn Təhmasib nağılları Heyvanlar haqqında, Sehrli nağıllar, Tarixi nağıllar, Məişət nağılları olaraq 4 başlıqda böldüyü halda, Müstəqil dövrümüzün folklorşünaslarından Oruc Əliyev və Füzuli Bayat Heyvanlar haqqında nağıllar, Sehrli nağıllar və Məişət nağılları başlıqlarında vermişdir. Azərbaycanda ilk dəfə nağılların süjet göstəricisini tərtib edən İlkin Rüstəmzadə isə öz araşdırması zamanı nağılları səkkiz qrupda birləşdir-

mişdir. Heyvanlar haqqında nağıllar, Sehrli nağıllar, Dini nağıllar, Novellavari nağıllar, Axmaq div (şeytan) haqqında nağıllar, Lətifəvari nağıllar, Zəncirvari nağıllar, Bahadırlıq nağılları. Qeyd edim ki, bu bölgü zamanı qabardılaraq göstərilən digər başlıqlar (Dini nağıllar, Novellavari nağıllar, Axmaq div (şeytan) haqqında nağıllar, Lətifəvari nağıllar, Zəncirvari nağıllar, Bahadırlıq nağılları,) əsas üç başlıqdan törəmələrdir. Bölgünün bu qədər uzun aparılması, məqsəddən çox kənara çıxmışdır. Fikrimizi izah etmək üçün Dini nağıllar bölgüsünü ələ alaq. Qeyd edək ki, dini bilgilər rus folklorunda nağıl şəklində yayılmışdır. Bunun təsiri ilə müəllifin Dini nağıllar başlığını böldüyünü vurğuladıqdan sonra, qeyd etməliyik ki, bu bölgü də Türk nağılları üçün keçərli deyil. Çünki dini bilginin qəbul edilə bilməsi üçün əvvəla oradakı bilgilərin, şəxsiyyətlərin və süjetin gerçəkliklə əlaqəsi olmalıdır. Bundan başqa, Rüstəmzadənin dini nağıllar olaraq topladığı mətnlər (Ağdaş folkloru, 2006:245, 252, 254 ve s.) formul, motiv anlamında da nağıl tələblərinə uymur. Burada söyləyicinin mətnə "biri vardı biri yox" və s. kimi nağıl qəliblərini süni şəkildə əlavə etdiyi açıqca hiss edilir.

Bizcə, nağıl mətnlərini tədqiq və təhlil edərkən bölgüsü forma və məzmuna görə aparılmalıdır. Formaca bölgüdə kumilyativ nağıllar qeyd edilməli, məzmunca bölgüdə isə sehrli nağıllar, heyvanlar haqqında nağıllar, məişət nağılları qruplaşmalıdır.

Heyvanlar haqqında nağıllar

Heyvanlar haqqında nağıllar uzun müddət dünya folklorşünaslığında müxtəlif cür adlandırılmışdır. Məsələn, ingiliscə "animal tales", "fable", fransızca "fabl", almanca "tiemarchen", rusca "сказки животных", Türkiyə türkcəsində "fabl" və son dönəmlərdə "hayvan masalı", Azərbaycan türkcəsində isə "heyvanlar haqqında nağıllar" şəklində adlandırmışlar.

Heyvanlar haqqında nağıllar barədə tədqiqatçıların müxtəlif fikirləri olmuşdur. Özəlliklə, materialist dünyagörüşünə xidmət edən alimlərimiz bu nağılların yaranma tarixinin sehrli və məişət nağıllarına nəzərən daha qədim olduğunu vurğulamışlar. Görünür, burada Darvinin təkamül nəzəriyyəsinin rolu böyükdür. Özəlliklə Sovet dövrü Azərbaycan folklorşünasları heyvanlar haqqında nağılları totem və alleqoriya ilə birbaşa əlaqədə götürmüşlər. Məsələn, P. Əfəndiyev "Qədim insanlar bir tərəfdən heyvanları müxtəlif yollarla ovlamış, onun ətini yemiş, südünü içmiş, dərisini geyinmişlər. Sonrakı inkişaf dövründə isə heyvandarlıq peşəsini seçən insanlar müxtəlif heyvanları saxlamaqla məşğul olmuşlar.

Heyvanlar haqqında qədim nağıllar çox vaxt əcdadın heyvanlarla rəftarı haqqında cavanlara nəsihəti, vəsiyyəti olmuşdur... Totem də elə qədim insanların heyvanlara ecazkar münasibətinin nəticəsidir" (Əfəndiyev P, Azərbaycan..., 1992:177). Göründüyü kimi, Paşa Əfəndiyev heyvanlar haqqında nağılın yaranmasında gündəlik məişət və totemin önəmli olduğunu vurğulayır. M.Təhmasibin fikirləri də ma-

raqlıdır: "Bu növ nağıllar ibtidai icma dövründə yaranmış, qədim ovçu, eləcə də əkinçi qəbilə və tayfalarda uzun müddət xüsusi əfsun vasitəsi kimi istifadə edilmiş, daha sonralar isə alleqorik nağılların və təmsillərin yaranmasında çox əhəmiyyətli rol oyanmışdır (Azərbaycan nağıl..., 1960:56). Hər iki folklorşünasımızın fikri ilə razılaşmağımız mümkün deyil. Çünki əgər heyvanlar haqqında nağıllar ovçuluq, totem, alleqoriya və əfsunun təsirilə yaransaydı, o zaman heyvanlar haqqında nağıllarda əxlaqi dərs vermək məqsədi güdülməz, daha çox macəra xarakterli olardı. Doğrudur, heyvanlar haqqında nağıllarda heyvanın acgözlük, vəhşilik, ikiüzlük kimi xüsusiyyətləri qabardılaraq insana işarə olunur, amma burada alleqorizmdən çox nəsihət, doğru yol göstərmə məqsədi güdülür. V.Propp heyvanlar haqqında nağıllar barədə deyir: "Heyvan obrazları ilə həmişə insana işarə olunması haqqında yayılmış mülahizə yanlışdır. Təmsildən fərqli olaraq nağıl üçün alleqorizm tamamilə yaddır" (Propp Y., 1976:51-52). Maraqlıdır ki, M.Seyidov nağıllarda heyvan obrazlarının əsas obraz kimi işlənməsini poetizm adlandırmış və doğru olaraq heyvanların nağıllarda həm insan xarakterlərini, həm də öz xarakterlərini təmsil etdiklərini vurğulamışdır: "Heyvanların insani xüsusiyyət daşıması bir sıra başqa səbəblərlə yanaşı, həm də nağılın maraqlı olması, ona müəyyən məna verilməsi və bədiiliyi artırmağa xidmət edir" (Seyidov N., 1966:31). Beləliklə, Seyidovun tədqiqatlarında heyvanlar iş və hərəkətlərinə görə iki şəkildə nəzərə çatdırılır: 1. insanlara xas olan cəhətlər heyvanlara şamil edilir. 2. heyvanların öz xarakterik cəhətləri təzahür edilir. Heyvanlar haqqında geniş tədqiqat aparan A.B.

Alptəkin də özünün "Hayvan masalı" kitabında heyvanlar haqqında nağıla belə tərif vermişdir: "Bir ahlak dersi vermek için anlatılan allegorik hikaye; Kahramanları hayvanlar olan masallar" adlandırmışdır. Araşdırıcının fikrincə, heyvanlar haqqında nağıllar əxlaq dərsi vermək üçün danışılır. (Alptekin B., 2010).

Heyvanlar haqqında nağıllarda qarşılaşdığımız obrazlar isə bunlardır: Ayı, Qurd, Dovşan, Tülkü, İt, At, Keçi, İlan, Quşlar, Balıqlar və s.

Bu nağılların özəllikləri isə belədir. Formul ünsürləri olmur, hadisələr insanlar ilə heyvanlar arasında olur; Bəzən qəhrəmanlar tamamilə heyvanlardan ibarət olur; nağıl mətnləri birdən çox hadisə üzərində qurulmuşdur; əsasən xariqüladə qəhrəmanlar iştirak etmir, hadisələr bir bütöv şəklində təqdim olunur, heyvanlar haqqında nağıllar əsasən qısa olur; gerçəklikə əlaqəsi yoxdur.

Nağıllarda obrazlar sistemini müəyyənləşdirmək çox önəmlidir. Çünki hər bir xalqın nağıllarının obrazlar sistemi özünəməxsus şəkildə olur. Məsələn, dünyaca məşhur "Sindrella" nağılının Azərbaycandakı ekvavalenti olan "Göyçək Fatma" nağılında inək obrazı var ki, bu digər nağılda mövcud deyil və nağılı milillilləşdirən motiv kimi özünü göstərir. Odur ki, əvvəlcə nağılların obrazlar sistemini müəyyənləşdirməliyik.

Heyvanlar haqqındakı nağıllar folklorun ən qədim janrlarındandır. Onda heyvanların və quşların mənşəyi, totem heyvanlar barədə süjetlərə rast gəlinir.

Heyvanlar haqqında nağıllardakı obrazlar ya insanlara xas olan cəhətlərin heyvanlara şamil edilməsi ilə, ya da heyva-

nın özünə aid olan xüsusiyyətlərin təsvir edilməsi ilə göstərilir. Məsələn, insanlara xas olan cəhətlərin heyvanlara şamil edilməsinə onu göstərə bilərik ki, bəzi nağıllarda heyvanlar və quşlar düşünür və danışır. Məsələn, "Tülkü baba və Hacıleylək" nağılında hər iki obrazın üzərinə insani xüsusiyyətlər köçürülmüşdür (Azərbaycan na..., 2005:238-249).

Bəzən heyvanların danışması xüsusiyyəti önə çəkilərək bu tip nağılların sehrli nağıl olduğunu hesab edirlər. Məsələn, V.Propp ilə S.Tompson arasında bu barədə elmi mülahizə fərqi vardır. Belə ki, Vladimir Propp "Nağılların morfologiyası" əsərində heyvanlar haqqında nağıllar ilə sehrli nağıllar arasında ortaq olaraq həm heyvanların həm də sehrli obrazların işləndiyini və bunun sərhəddinin doğru ayrılmadığını tənqid edir. Bununla belə, Propp Aarne-Tompson kataloqunda 300-749-cu təsnifatda yer alan rus nağıllarından öz tədqiqatında istifadə edir.

"Əgər məndən soruşsalar ki sehrli nağıl nədir? O zaman deyərəm ki, Undine (**alman mifologiyasında su pərisidir – A.Q.**) oxuyun, çünki bütün sehrli nağılların ən gözəlidir (http: The fantastic imagination).

Tompson vurğulayır ki, danışan heyvanlar və pərilər daha çox sehrli nağıllarda görünməkdədir. Danışan heyvanlar, özəlliklə heyvanların nağılda insani keyfiyyətlər daşıması heç də nağılı sehrli etməz (http:Tolkien. J.R.R. On fairy stories).

Steven Svann Cons, sehrli nağılı digər növlərdən ayıra bilən xüsusiyyət olaraq göstərir. Davidson və Çaudri, bu növün əsas xüsusiyyəti olaraq çevrilməni göstərir. Psixoloji

nöqteyi nəzərdən isə Jan Şirak bu mətnlərdə fantastikliyin mövcudluğunu şərt olaraq götürür.

Fikrimizcə, janrlar arasında sədd çəkmək doğru deyil, ancaq bəzi özəlliyinə görə hər iki nağıl qrupu arasında fərqlər mövcuddur. "Heyvanlar aləmindən bəhs edən nağıllarda hadisələr əsasən təbii, sadə şəkildə inkişaf edir, bəzən nikbin, bəzən də əksinə sona yetir. Sehrli nağıllarda isə həmişə hadisələr möcüzəli yolla, həm də xeyirin şər üzərində qələbəsilə sona yetir. Bu, sehrli nağıl poetikasının əsas xüsusiyyətlərindən biridir" (Əliyev O., 2001:48).

Sehrli nağıllarda bütün heyvanlar və quşlar bir səciyyə daşıyır və sehrli köməkçi funksiyasını yerinə yetirir. Heyvanlar aləmindən bəhs edən nağıllarda isə həmin obrazlardan hər biri fərdi səciyyə daşıyır. Məsələn, "Yanıq nağılı"nı oxuduqda bunu görə bilərik (Azərbaycan..., 2005:267-IV c). Nağılda möcüzəli muncuq qəhrəmanın həyatında mühüm dəyişiklik yaradır, o, yoxsul həyata son qoyur, vardövlət içində yaşamağa başlayır. Bu tipli nağıllarda mövcuzəli əşyanın itirilməsi ilə hər şey əldən çıxır. Bu tipli nağıllarda heyvanlar haqqındakı nağıllardan fərqli olaraq müxtəlif heyvan və quşlar bir funksiyada - qəhrəmanın köməkçisi rolunda çıxış edirlər. Heyvanlar haqqındakı nağıllarda isə heyvanlar və quşların hər biri fərdi səciyyə daşıyır, müxtəlif funksiyada çıxış edir (Bax: Əliyev O., 2001).

Heyvanlar haqqındakı nağılların obrazlar sistemi də maraqlıdır. Bu obrazlar əsasən ziddiyyətlərin qovuşması prinsipi ilə yaradılır: güclü-zəif, böyük-kiçik, yırtıcı-qeyri-yırtıcı. "Bununla yanaşı, nağıl yırtıcı, vəhşi heyvanların aralarındakı toqquşmanı da göstərir. Vəhşi heyvanların bir-birlərinə

yaxın olmalarına baxmayaraq, yırtıcılar bir-birlərinə qarşı da rəhmsizdir. Məsələn, tülkü canavarı şirin zərbəsi altına salır, şiri və ayını aldadaraq insanın zərbəsi altına salır. Belə əlaqəsizlik nə xırda meşə vəhşiləri düşərgəsində, nə də ev heyvanları arasında yoxdur, əksinə, onları bir-birinə kömək etmək istəyi yaxınlaşdırır. Bu baxımdan "Tülkü, tülkü, tünbəki" və "Hiyləgər keçi" nağılının müqayisəsi maraqlı olar" (htpp: Əliyev O.).

Heyvanlar haqqındakı nağıllardan "Şəngülüm, Şüngülüm, Məngülüm" nağılı öz məzmunu, obrazları, kompozisiya xüsusiyyətləri ilə xüsusilə seçilir. Bu nağılın süjeti şumer mətnlərində keçi-canavar (və ya şir) əhvalatlarında işlənməklə yanaşı, (Çığ İ. 2003), qumuq folklorunda da mövcuddur. Şumer mətnlərində əsasən keçinin şirdən (bəzən qurddan) öz iti ağlı sayəsində necə qurtulduğundan bəhs edilir. "Eniligim, Seniligim, eşikni aç" adlanan qumuq variantında isə **(Altın başmak, 1979:246)** nağıl ənənəvi qəlib ilə başlayıb, heyvanlar haqqında nağıllara aid edilsə də, əslində istər süjet, istərsə də, motiv baxımından heyvanlar haqqında ənənəvi nağıllardan fərqlənir.

Nağılın süjet xətti qurdun keçinin balalarını yeməsi və keçinin öz intiqamını alması üzərində qurulur. Ancaq diqqətlə incələdikdə qumuq və Azərbaycan variantlarında bəzi kiçik fərqlər ortaya çıxır. Azərbaycan variantında qurd, keçidən qorxmur, hiyləgərlik etmir, təbiətindən gələn bir xislət ilə keçinin balalarını yemək istəyir. Qumuq nağılında isə qurd əvvəlcədən plan qurur, keçinin ağzından söz alır, onun balalarını necə yemək haqqında düşünür. Deməli, qumuq nağılında canavar daha ağıllı və tədbirli heyvan kimi

təqdim edilir. Bu da mövzunun başlanğıcında vurğuladığımız millilik məsələsinin önəmini bir daha ortaya qoymuş olur.

Nağılın maraqlı cəhəti həm də ondan ibarətdir ki, hər iki variantda keçi məhz dəmirçinin sayəsində güclənir. Qurda qalib gəlir. Nəzərə alsaq ki, dəmirçilik qədim türklərdə müqəddəs sayılırdı, onda keçinin dəmirçinin sayəsində qalib gəlməsində də mistik bir gücün varlığından söhbət gedir. Çünki qurd keçidən təbiətcə üstün heyvandır. Ancaq nağılda bunun əksinə, qurdun keçidən qorxduğu qeyd edilir. Bu da mistik güclərin rolu ilə mümkün olur. Mistik güc isə əsasən, dəmirçinin sayəsində gerçəkləşir. Dəmirin beşinci müqəddəs maddə olaraq qəbul edildiyi türk mifologiyasında məhz dəmirçinin sayəsində zəifin güclüyə qalib gəlməsi təsadüf sayılmamalıdır. D.Kaya dəmirçilik haqqında yazır: "...Dəmirçilik də onlar (Türklər – A.Q.) üçün müqəddəs iş və məşğələ idi" (**Türk halk edebiyatı terimleri...**, 2007: 79). Bu nağılın keçinin üstünlüyü ilə bitməsinin digər səbəbini də Azərbaycan və qumuq folklorunda keçi və qurda münasibətinin əksi kimi görə bilərik. Bildiyimiz kimi, Azərbaycan və qumuq türkləri heyvandarlıqla məşğul olmuşlar. Mal-qara üçün də ən təhlükəli heyvan təbii ki, qurddur. Qurddan xəta, təhlükə görən qədim insan qurd haqqında müxtəlif nağıllar, rəvayətlər uydurarak ondan özünü qorumağa çalışmışdır. Ancaq keçi süd, yun, bala verir. Yəni sahibinə xeyir verir. Deməli, qədim insanın təfəkküründə keçinin dəmirçidən yardım alması və qurdun keçiyə məğlub olması heç də təsadüf deyil, qanunauyğunluğun bir parçası-

dır. Qısaca qeyd edək ki, bu nağılın obrazları heyvanlar aləmini təmsil edir.

Oruc Əliyev bildirir ki, "Sehrli nağılların qəhrəmanları Məlikməmməd, Tapdıq, Ayğır Həsən, Kəl Həsən, Cantiq və başqaları ideal qəhrəmanlardır. Onlar şər qüvvələri məhv etməklə insanları ölümdən, fəlakətdən qurtarırlar. Belə qəhrəmanlar imkansız olan xeyir əməlləri həyata keçirirlər.

Sehrli nağılların məntiqinə görə, yalnız qarşıya qoyulan şərti yerinə yetirə bilənlər istəklərinə yetirlər, bunu bacarmayanlar isə əsir alınır, qula çevrilir, bəzən də ölümə məhkum olurlar. Sehrli nağılların qəhrəmanları belə şərtləri yerinə yetirməklə öz istəklərinə layiq olduqlarını göstərirlər.

Bu cəhət heyvanlar haqqındakı nağıllar üçün səciyyəvi hal kimi özünü göstərmir. Bunun başlıca səbəblərindən biri heyvanlar aləmindən bəhs edən nağıllarin "heyvani sərbəstliyə" əsaslanmasıdır. Bu cəhəti nəzərə alan Muxtar Kazımoğlu göstərir ki, burada "heyvan-insan" münasibətinin "heyvan-heyvan" münasibəti şəklində ifadəsinin əlamətləri duyulur. Bu əlamətlər "Xoruz və Padşah", "Tülkü baba və Hacıleylək", "Tülkünün kələyi" kimi nağıllarda daha qabarıq şəkildə üzə çıxır (Kazımoğlu, 2006:19).

Vəhşi heyvanların, ev heyvanlarının və insanların yer aldığı bir çox nağıllarda heyvanla yanaşı, insanların da iştirakı təbii şəkildə özünü göstərir. Bu nağılların bəzisində heyvanlar deyil, insanlar çıxılmaz vəziyyətə düşür, aldadılır. "Tülkünün kələyi" nağılı bu cəhətdən diqqəti cəlb edir. Bu nağılda ovçu ilə tülkü qarşı-qarşıya gətirilir. Tülkülər Oçu Pirimin toyuq hininə gəlib girir. Ovçu Pirim üçüncü gün tülküləri yaxalaya bilir (htpp: Əliyev O.,).

Heyvanlar haqqında nağıllarda süjet xətti sadə qurulur, obrazlar heyvanlardan ibarət olur. Bu tərz nağılların xarakterik xüsusiyyətləri məhz bunlardır.

Sehrli nağıllar

Sehrli nağıllar qeyri-adi hadisələrlə, qəhrəmanlarla, möcüzəli əşyalarla zəngindir. Mürəkkəb quruluşa malik olan bu nağıllarda mifik təsəvvürlər özünəməxsus şəkildə əks olunmuşdur. Sehrli nağıllarda sehr kimi qəbul etdiyimiz detallar ilkin zamanlarda dini inancın təsirilə ortaya çıxsa da, bu təsəvvürlər inkişaf prosesində tədricən aradan çıxıb, ancaq nağıl estetik mənasını itirmədən bədii əsər kimi xalqın yaddaşında bu gün də yaşayır.

İngilis folklorşünaslığında sehrli nağıllara münasibət bir qədər fərqlidir. Nağıl, möcüzə, sehrli nağıl yaxud almanca işləndiyi halda märchen kimi ifadələrlə adlandırılan bu mətnlər elflər, pərilər, divlər, yunikornlar və ifritələrin, sehrbazların iştirakı ilə xarakterikdir. "Fairy tale" termini ilk mərhələdə Avropa ənənələrindən qaynaqlanan hekayələr üçün işlədilsə də, son zamanlar uşaq ədəbiyyatı üçün işlədilir.

Dar mənada, termin həm də xoşbəxt sonluğu təsvir etmək üçün də işlədilir: "*fairy tale ending*" (*a happy ending*) yaxud "fairy tale romance" (Əgər nağılın sonu xoşbəxt sonluqla deyil, faciə ilə bitərsə, bu anti-fairy tale adlanır.). Bunun qarşılığında, "fairy tale" yaxud "fairy story" terminləri həmçinin far-fetched story yaxud tall tale kimi mənaları da ehtiva edə bilər; yəni xüsusilə heç cür həqiqətə uyğun olmayan, doğru ola bilməyəcək hekayələr üçün də bu termin işlədilir.

"Fairy tales" şifahi və yazlı ədəbiyyatda özünü göstərə bilir; bu ifadəni ilk dəfə 17-ci əsrdə Madam Dulunoy (Ma-

dame d'Aulnoy) işlətmişdir. Bugünki nağılların əksəriyyəti dünyanın bir çox mədəniyyətlərində əsrlər boyu dəyişikliklərlə ortaya çıxan hekayələrdən inkişaf etmişdir. Nağılın tarixi haqda bilgi vermək çətindir. Amma buna baxmayaraq, Durham və Lizbon universiteti mütəxəssisləri nağılların 6 min il əvvələ aid ola bilmə ehtimalını irəli sürürlər (http: Fairy tale).

Folklorçular sehrli nağılları müxtəlif cür təsnif etmişlər. Bu təsnifatlar arasında ən diqqətəlayiq olanları Aarne-Tompsona və Proppa məxsusdur.

Bəzi folklorçular almanca "märchen" yaxud "wonder tale" kimi terminləri bu janra aid etmişlər. "Bu tərz nağıllar motivlərin vəya hissələrin birbirini izləyən uzunluğundadır. Hadisələr müəyyən bir lokallıq yaxud əcaib varlıqların mövcud olduğu, həqiqətə uymayan bir dünyada inkişaf edir. Burada dünya sonsuzdur, qəhrəmanları krallara qalib gəlir və şahzadələr ilə evlənirlər" (Stit T., 1946:342).

Nağılların simvol və motivləri sadə və arxetipaldır: prinsesalar və qaz-qızlar; ən kiçik oğlan və qüdrətli şahzadələr; divlər, nəhənglər, əjdahalar; pis övladlar və saxta qəhrəmanlar; pərilər və digər sehrli köməkçilər, danışan atlar və ya tülkü, və ya quşlar; şüşə dağlar; qadağalar və qadağaların pozulması.

Termin ilk dəfə Madam Dulunoy Kontenin (Madame D'Aulnoy's Conte) 1697-ci ildə istifadə etdiyi kolleksiyasının tərcümələrində özünü tapmışdır. Alimlərin qənaətincə, ortaq ifadə kimi fairy tales canavar haqqında mətnləri və digər folklor mətnlərini birləşdirir, burada pərilərin yaxud mifoloji varlıqların (məs:, Elflər, qoblinlər (**goblin orta əsr**

Asiya mifindən Avropa mifinə keçdiyi düşünülən demonik obrazdır – A.Q.), divlər) işlənməsi ilə sehrli nağıl mətnlərini müəyyənləşdirmək mümkündür.

Sehrli nağılların ən səciyyəvi xüsusiyyətlərindən biri odur ki, bu nağıllarda süjet ənənəvi məkan və zaman hüdudunda inkişaf edir.

Bədii nağıl məkanı real məkandan ayrılır, xəyali şahlıq və dövlətinə bağlanır. Məsələn, firəng padşahının məmləkəti, bir padşahın məmləkəti, Qaf dağının arxası, Misir padşahlığı və s. nəzərdə tutulur. Sehrli nağılda həm də həqiqi dünya – kəndlər və şəhərlər, çaylar, meşələr, şahlıqlar da əks olunur. Bütün bu dünya da xüsusi, şərti qeyri-reallıqla verilir.

Nağıl məkanı həmişə əsas iştirakçı ilə bağlı olur. Nağılçı sanki qəhrəmanla bir sırada olur. O, görünən və eşidilən hər şeyi təsvir edir. Qəhrəmandan xaricdə heç bir şeyi təsvir etmir. Müxtəlif hadisələrlə bağlı qəhrəmanın yerdəyişməsi süjet inkişafında mühüm əhəmiyyət daşıyır. Belə ki, adətən "öz" şəhərinin kənarında qəhrəman onun düşüncələrini, istəyini, bütün dərdlərini aşkar duya bilən, ona doğru yol göstərən, ona sehrli vasitələr və köməkçilər əldə etməkdə kömək edən müdrik qoca ilə qarşılaşır. Məsələn, "gəzhagəz gəlib çıxdı qaranlıq bir meşəyə. Gördü ki, qabaqda bir koma görünür. Qaraqaş atını sürüb çatdı komaya. Gördü ki, burada qoca pirani bir kişi oturub qabağında manqal, əlində batman kitab" (Azərbaycan..., 2005:8, II c).

Sehrli nağıllarda məkan "öz" və "özgə" şahlığına ayrılır. Onları aralarındakı qalın meşələr, uca dağlar, dərin quyular, çaylar, dənizlər bir-birindən ayırır. Məhz "özgə" şahlıq-

la qəhrəman əsas sınaqlardan keçir, öz rəqibi ilə qarşılaşır, onunla döyüşür. Çox uzaq şahlıqla qəhrəman Simurq quşunun, sehrli atın və ya sehrli əşyaların köməyilə istəyinə çatır, uğurla "öz" şahlığına yetir. Qəhrəman bəzən "yeraltı" şahlığa düşür, onun yoluna keçilməz sədlər, odlu çaylar, tilsimlər çıxır, ancaq bunlar hərəkəti çətinləşdirmir, onun inkişafına mane olmur (Əliyev O., 2001:12). "Heç bir məsafə nağılın inkişafına mane olmur, əksinə ona genişlik, əhəmiyyət, özünəməxsus pafos gətirir. Məkan isə onda baş verən hadisənin əhəmiyyəti ilə qiymətləndirilir" (Лихачев Д., 1971:386).

Yolda, kimsəsiz çöldə nağıl qəhrəmanı gələcək yol yoldaşları ilə, yaxud düşmən qoşunu ilə qarşılaşır (Əliyev O., 2001:13). Bu bütün sehrli nağıllar üçün xarakterik hal sayıla bilər. Nağıl qəhrəmanı hər an öz qeyri-adiliyi ilə dinləyicinin diqqətini cəlb edə bilər. Məsələn, az getdi uz getdi, dərə-təpə düz getdi, gördü ki biyabanda bir nəfər adam hər qolunda bir dəyirman daşı ceyran qovur (Azərbaycan... , 1962:153).

Sehrli nağıllar üçün məkan anlayışı qeyri-adi olmalıdır. Bu məkanın müsbət və mənfi obrazları da qeyri-adi gücə malik olmalıdır. Məsələn, "yeraltı dünyada nağıl qəhrəmanı qeyri-adi düşmənlərlə - div, əjdaha və digər şər varlıqlarla qarşılaşır" (Əliyev O., 2001:13) . Nümunə üçün: Ayğır Həsən quyunun dibində bir tərəfə getdi, gördü ki, bir ev var. İçəri girib baxdı ki, elə həmin dev də burdadır. Ona bir kürz vurub cəhənnəmə vasil elədi (Azərbyacan... , 1962: 158).

Bəzən sehrli nağıllarda qəhrəmanın uşaqlıq dövrü elə bir əhəmiyyət kəsb etmədiyi üçün onun ayla, günlə böyüdüyü qeyd olunaraq bu mərhələnin üstündən keçilir. Məsələn: "Nağılda vaxt tez başa gələr, ay dolandı, il keçdi, İbrahim gəlib on yaşa doldu" (Azərbaycan..., 2005:93-IV c). Bəzən isə qəhrəmanın məhz uşaqlıq dövrü geniş təsvir edilir və bu tərz nağıllarda qəhrəmanın gələcəkdəki şücaəti, igidliyinə haqq qazandırmaq üçün sanki zəmin hazırlanır. Bu, nağıl tədqiqatçılarını fikir ayrıılığına gətirir. Belə ki, İlkin Rüstəmzadə "Azərbaycan nağıllarının süjet göstəricisi" (2013) kitabında sehrli nağılların məhz bu xüsusiyyətlərini nəzərə alaraq, onları xüsusi bir qrupa – bahadırlıq nağılları qrupuna bölmüşdür.

Qeyd etməliyəm ki, Azərbaycan sehrli nağıllarının əksəriyyətində qəhrəman öz qeyri-adi davranışı, gücü ilə oxucunun diqqətini cəlb edə bilir. Hesab edirik ki, İlkin Rüstəmzadə "Bahadırlıq nağılları" bölgüsünü rus folklorşünaslığının təsiri ilə aparmışdır. Çünki müəllif bahadırlıq nağıllarına misal göstərməkdə çox çətinlik çəkir. Hətta bahadırlıq nağıllarının bütün xüsusiyyətlərini (İ.Rüstəmzadənin özünün göstərdiyi xüsusiyyətləri – A.Q.) əhatə edən bir örnək göstərilməmişdir. Bu isə həmin bölgünün Azərbaycan-türk nağıllarının xüsusiyyətinə uyğun olmadığını göstərir.

Bahadırlıq nağılları bölgüsü tamamilə sehrli nağılların xüsusiyyətlərini özündə əks etdirdiyi üçün belə bir bögünün aparılmasına gərək yoxdur[2].

---

[2] Bu haqda əlavə məlumat almaq istəyirsənsə bax: Bağımsız Azerbaycan masal Çalışmalarında Rus və Sovyet ideolojisinin etkisi. Toroslardan Tanrı dağlarına Türk

V.Y.Proppun "Nağılların morfologiyası" əsərində sehrli nağılların tədqiqi

Sehrli nağıllar haqqında danışarkən, şübhəsiz, Proppun "Nağılların morfologiyası" adlı əsərindən bəhs etməmək olmaz. 1928-ci ildə yazdığı əsər ingilis, italyan, fransız, rumın, macar, çex, alman dillərinə tərcümə olunub. Propp bu vacib əsərində sehrli nağılların quruluşunu müəyyənləşdirməyə çalışıb. Qeyd edək ki, bu kitab öz dövrünə görə metod baxımından çox irəlidədir.

V.Y.Propp sadəcə sehrli nağılları tədqiqata cəlb edir. Aarne-Tompson kataloqundakı 300 və 749-cu nömrəli nağılları araşdırır. Bundan başqa, V. Propp təhlil aparmaq üçün müxtəlif mövzulu yüz nağılın yetərli olduğunu düşünür. O, düşünür ki, morfoloji tədqiqat aparan alim yeni funksiya ilə qarşılaşmazsa, tədqiqatını dayandıra bilər. Belə bir vəziyyətdə təhlili başqa yöndə, məsələn, siyahı tərtibetmə, əskiksiz təsnifat, tarixi təhlil ilə davam etdirə bilər. Propp bu düşüncə ilə A.N.Afanasyevin "Rus xalq nağılları"ndakı 50 ilə 150-ci nömrələr arasında yer alan nağılları təhlil edir. Proppun fikrincə, önəmli olan nağılların necəliyi deyil, nağıllara tətbiq edilən analizin keyfiyyətidir.

Propp funksiya nəzəriyyəsini müəyyənləşdirərkən əsasən tədqiqata cəlb etdiyi nağılların mövzusunu bir-biri ilə müqayisə etməyə çalışır. Bu məqsədlə xüsusi metodlar ilə sehrli nağılların əsas struktural hissələrini müəyyənləşdirir, sonra bu nağılları struktural hissələrinə görə müqayisə edir.

Halk Biliminin Ulu Çinarı (Prof. Dr. Ali Barat Alptekin armağanı). Kömen yayınevi, 2019, s. 521-525

Nəticə olaraq isə nağılların morfologiyası müəyyənləşir. Bunu başqa cür desək, nağılların struktural hissələri ilə bu hissələrin öz aralarında və nağılın bütöv mətni ilə qurduğu əlaqə sayəsində nağılın növü ortaya çıxır. Məsələn, "Cırtdan" nağılını götürək. Burada struktural hissələr odur ki, Cırtdan oduna gedir, div ilə qarşılaşır, divi öz ağlı və zəkası ilə yenir və evinə qayıdır. Burdakı bütün hissələr bir-birilə əlaqəlidir və bu əlaqələr həm də nağılın bütününü təşkil edir.

Propp nağılın növünün (bunun digər adı qruplaşdırmadır) müəyyənləşməsini belə izah edir: 1.Kral bir igidə bir qartal verir. Qartal igidi başqa bir krallığa aparır. 2.Babası Suçenkoya bir at verir. At Suçenkonu başqa bir krallığa aparır. 3.Bir baxıcı İvana bir qayıq verir. Qayıq İvanı başqa bir krallığa aparır. 4.Kraliça İvana bir üzük verir. Üzükdən çıxan nəhəng adamlar İvanı başqa bir krallığa aparır. Burda dəyişən və dəyişməyən dəyərlər var. Dəyişən dəyərlər insanların adları və özünəməxsus xüsusiyyətləridir. Dəyişməyən dəyərlər isə onların fəaliyyətləridir. Yəni, nağıllarda eyni fəaliyyətlər müxtəlif insanlar – obrazlar tərəfindən gerçəkləşdirilir. Bu da onu göstərir ki, nağılları insanların fəaliyyətinə uyğun olaraq təhlil etməliyik.

Propp funksiyaların heyrətləndirici şəkildə təkrarlandığını göstərir. Nağıl obrazları bir-birindən nə qədər fərqli görünsələr də, əsasən eyni fəaliyyətləri icra edirlər. Bu funksiyanın gerçəkləşməsinə imkan yaradan yol dəyişə bilər, amma funksiya dəyişməyən bir dəyərdir. Nağılın təhlilində önəmli olan ən mühüm məsələ insanların nə etdiklərini bilməkdir, kim tərəfindən, necə edildikləri isə ikinci dərəcəli-

dir. Nağıllarda funksiyaların olduqca az, insanların isə həddən çox olduğu görünür. Bu da sehrli nağılların bir tərəfdən sehrli müxtəlifliyi, rəngarəngliyi, digər tərəfdən isə sehrli sayıla biləcək təkyönlülüyü, monotonluğu olaraq qəbul oluna bilər. İnsanların funksiyası nağılların təməl - əsas hissələrini göstərməkdədir, öncəliklə müəyyənləşdirməli olduğumuz funksiya da məhz budur. Propp da bunun üçün əvvəlcə funksiyaları müəyyənləşdirir. Bu müəyyənləşdirmə zamanı iki mövzu üzərində düşünür: birincisi, müəyyənləşdirmə zamanı heç vaxt funksiyanı yerinə yetirən obraz göz önündə olmamalıdır. Bir çox vəziyyətdə müəyyənləşdirmə fəaliyyəti açıqlayan bir adla vurğulanır. İkincisi fəaliyyət danışılan mövzudan kənarda müəyyənləşdirilə bilməz. Hadisələr axınının içində verilmiş bir funksiyanın daşıdığı məna göz önündə tutulur.

Maraqlıdır ki, V.Propp funksiya sözündən bir obrazın fəaliyyətini, hadisələr axınında daşıdığı məna baxımından müəyyənləşmiş fəaliyyətini anlaya bilir. Bu funksiyaların isə dörd təməl xüsusiyyəti vardır:

1. Obrazlar kim olursa-olsun və funksiyalar necə gerçəkləşdirilirsə gerçəkləşdirilsin, nağılın dəyişməz, sabit elementləri vardır. Funksiya nağılların təməl, konstruktor hissələridir.

2. Sehrli nağılların funksiyaları limitlidir.

3. Funksiyaların ardıcıllığı hər zaman eynidir. Ancaq bütün nağıllarda bütün funksiyalar yer almır. Bu da nağılda hadisələr axınını dəyişdirməz.

4. Bütün sehrli nağıllar quruluş baxımından eyni tipə aid olurlar (Propp V. 1928:30-33).

V.Propp, nağılların girişində, adətən, bir başlanğıc olduğunu bildirir. Belə ki, nağıllarda əvvəlcə ailənin üzvləri haqqında məlumat verilir, onlar təqdim olunur, yaxud gələcəyin qəhrəmanı sadəcə adı ilə yaxud da vəziyyətinin təsvir olunması ilə təqdim edilir. Bu başlanğıc bir funksiya olaraq deyil, morfoloji bir element olaraq qəbul edilir və α ilə göstərilir. Proppun nağıllarda müəyyənləşdirdiyi 31 funksiya isə bunlardır:

1. Ailədən biri evdən uzaqlaşır (uzaqlaşma; simvolu e)

2. Qəhrəman bir qadağa ilə qarşılaşır (qadağa; simvolu б)

3. Qadağa çeynənir (qadağanı ceynəmə; simvolu Ь)

4. Mənfi obraz bilgi toplamağa çalışır (istintaq; simvolu в)

5. Mənfi obraz qurbanı ilə əlaqəli bilgi toplayır (bilgi toplama; simvolu w)

6. Mənfi obraz qurbanını vəya sərvətini ələ keçirmək üçün onu aldatmağa çalışır (aldatma; simvolu г)

7. Qurban aldanır və istəmədən düşmənینə yardım edir (suça qarışma; simvolu g)

8. Mənfi obraz ailədən birinə zərər verir (pislik; simvolu A) Bu funksiya olduqca önəmlidir. Nağılın hərəkət dinamikasını təşkil edir deyə bilərik. İlk yeddi funksiya nağılın hazırlayıcı bölümü olaraq qəbul edilir. Hadisələr axını pislik etmə mərhələsindən düyünlənir. Ancaq burda bir detalı nəzərə çatdırım ki, bütün nağıllar pislik edilmə ilə başlamır. Başqa başlanğıclar da var. Bu nağıllarda da hadisələr axını pislik ilə başlayan nağıllardakı kimi cərəyan edir.

8a. Ailədən birisinin bir çatışmazlığı var, ailədən birisi bir şey əldə etmək istəyir (əskiklik; simvolu α)

9. Pisliyin yaxud əskikliyin xəbəri yayılır, bir dilək, yaxud əmrlə qəhrəmana müraciət edilir, qəhrəman göndərilir, ya da getməsinə izin verilir (vasitəçilik, keçid anı; simvolu B)

10. Axtarışda olan qəhrəman hərəkətə keçməyə razılaşır yaxud hərəkətə keçməyə qərar verir (əks fəaliyyətin başlanğıcı; simvolu C)

11. Qəhrəman evindən ayrılır (gediş; simvolu ↑)

12. Qəhrəman sehrli bir nəsnəni ya da köməkçi əldə etməsini təşkil edən bir sınaq, istintaq, hücum və s. ilə qarşılaşır (ianəçinin ilk funksiyası; simvolu D)

13. Qəhrəman qarşıda ona bəxşiş verən insanın fəaliyyətinə reaksiya verir (qəhrəmanın reaksiyası; simvolu E)

14. Sehrli nəsnə qəhrəmana verilir (sehrli nəsnənin alınması; simvolu F)

15. Qəhrəman axtardığı nəsnənin olduğu yerə çatır, ona bələdçilik edilir, ya da yol göstərilir (İki şahlıq arasında məsafə, bir bələdçinin müşayəti ilə səfər; simvolu G)

16. Qəhrəman və mənfi obraz bir mübahisədə qarşı qarşıya gəlir (mübarizə; simvolu H)

17. Qəhrəman xüsusi bir işarə əldə edir (xüsusi işarə; simvolu I)

18. Mənfi obraz yenilir (qələbə; simvolu J)

19. Başlanğıcdakı pislik yaxud zərər aradan qaldırılır (kənarlaşdırma; simvolu K)

20. Qəhrəman geri dönür (qayıdış: simvolu ↓)

21. Qəhrəman izlənir (izləmə; simvolu Pr)

22. Qəhrəmana yardım edilir (yardım; simvolu Rs)

23. Qəhrəman kimliyini gizlədərək, öz evinə yaxud başqa bir ölkəyə çatır (kimliyi gizlədərək gəlmək; simvolu O)

24. Yalançı bir qəhrəman yalançı nəzəriyyə iddia edir (yalançı nəzəriyyələr; simvolu L)

25. Qəhrəmana çətin iş təklif olunur (çətin iş; simvolu M)

26. Çətin iş yerinə yetirilir (çətin işi yerinə yetirmə; simvolu N)

27. Qəhrəman tanınır (tanı(n)ma; simvolu Q)

28. Yalançı qəhrəmanın, mənfi obrazın, ya da şər qüvvənin gerçək kimliyi ortaya çıxır (aşkarlama; simvolu Ex)

29. Qəhrəman yeni bir cildə girir (cild dəyişdirmə; simvolu T)

30. Yalançı qəhrəman ya da mənfi obraz cəzalandırılır (cəzalandırma; simvolu U)

31. Qəhrəman evlənir və taxta çıxır (evlənmə; simvolu W o)

Beləliklə, nağıl bitir. Nağıl qəhrəmanlarının bəzi fəaliyyətləri bəzi vəziyyətlərdə bu təsnifata uymur. Yuxarıda müəyyənləşdirilən funksiyaların heç biri ilə müəyyənləşmir. Bu vəziyyətlərə çox nadir hallarda rastlanır. Proppa görə, bunlar ya əlindəki müqayisə elementlərinin azlığı səbəbindən ortaya çıxmayan qəliblərdir, ya da başqa kateqoriyalara (janrlara – A.Q.) (lətifə, əfsanə və s.) aid qəliblərdir. Bu cür elementlər isə Y ilə göstərilir.

Bir çox nağıldakı hadisələrin gedişatı bu funksiyaların əhatə dairəsi içində inkişaf edir. Bütün funksiyalar ard-arda

düzüldüyündə hər funksiyanın özündən öncəki funksiya ilə məntiqi və estetik əlaqəsi ortaya çıxır. Heç bir funksiya digərini istisna etmir. Bu funksiyaların hamısı bir kökə bağlıdır. Bəzi funksiyalar isə cütləşərək yaranır: məsələn, qadağa – qadağanı pozma, istintaq-bilgi toplamaq, mücadilə-qələbə, izləmə-kömək. Propp bu sxemi bütün nağılların müəyyənləşdirilməsi üçün bir şərt olaraq görür. Onun fikrincə, funksiyalar nağılın təməl elementləridir.

Ev tapşırığı: Sehrli nağıllar əsasında funksiyaları müəyyənləşdirin.

Məişət nağılları

Məişət nağılları daha çox inandırıcı, real hadisələrdən bəhs edir və ailə-məişətlə bağlı olur. Real qəhrəmanlarla əlaqəli olan məişət nağılları bu xüsusiyyətlərinə görə realist nağıl da adlanır. Məişət nağıllarının digər adı da Novellistik nağıllardır. Məişət nağılları sehrli və heyvanlar haqqındakı nağıllar ilə müqayisədə real həqiqətə, ictimai və məişət problemlərinə daha yaxındır. Ona görə də qəhrəman şər qüvvələrlə mübarizədə sehrli qüvvələrin köməyilə deyil, öz diribaşlığı və bacarığı sayəsində qalib çıxır (Əliyev O., 2005:60). Azərbaycan folklorşünaslığında "Daşdəmirin nağılı" realist nağıllardan hesab edilir. Burada Daşdəmirə sehrli qüvvələr deyil, müəllimi Mirzə Möhsün və padşah qızı Nardan xanım kömək edirlər. Onun silahı biliyidir. Ağıllı və qorxmaz Daşdəmir bağban oğlu olsa da, əsərin sonunda zülmkar adamlara qalib gəlir (Azərbaycan..., 1964: 256-274).

Məişət nağıllarında hadisələr, obrazlar real həyata, ictimai-məişət olaylarına daha yaxın olur. "Məişət nağıllarında konflikt məişət çərçivəsində inkişaf edir, qəhrəman fəal olur və möcüzəli köməkçilərsiz hərəkət edir" (Seyidov N., 1966: 62).

Qeyd edək ki, sehrli nağıllarda qəhrəman sehrli qüvvələrin və əşyaların köməyi sayəsində ona verilən missiyanı gerçəkləşdirirsə, məişət nağıllarında ağlı, fərasəti, hazırcavablığı, bəzən hiylə və kələyi ilə buna nail olur. Bu məzmun xüsusiyyətləri nəzərə alaraq Oruc Əliyev "Azərbaycan nağıllarının poetikası" (2005) adlı kitabında məişət nağılla-

rını üç qrupa bölür: 1. Sual-tapmaca üzərində qurulan nağıllar. 2. Satirik məişət nağılları 3. İnsan xarakterində, ailə münasibətlərində olan nöqsanların ələ salındığı məişət nağılları (Əliyev O., 2005:62-63).

Bu tip nağıllarda süjet xətti əsasən sual-tapmaca üzərində qurulur və hadisələr həmin tapmacanın açılması ilə sona çatır. Məsələn, "Şahla qız", "İlyasın nağılı", və "Üç şahzadə" nağılları. Sual-tapmaca nağıllarının mənşəyi uzaq keçmişə dayanır. Bu qədim adətimiz nişanlının ağlının, bacarığının yoxlanması adəti ilə əlaqəlidir. Burada haşiyəyə çıxıb qeyd etməliyəm ki, bu adət bu gün də qumuq türkləri arasında yaşamaqdadır (Qəzənfərqızı A., 2018:32)

2. Satirik məişət nağılları. (bunun 1 olanı yoxdu)

Bu tip nağıllarda padşahlar, tacirlər, ruhanilər əsasən mənfi planda təsvir olunur. Bunun əksinə olaraq, çoban, bağban, əkinçi, dəmirçi və s. kimi xalq nümayəndələri isə bu tip nağılların müsbət qəhrəmanları kimi verilirlər (Əliyev O., 2001:63). Məsələn, "Padşah və köməkçi", "Padşah və dəmirçi", "Keçəl," "Şirvan qazısı".

Satirik nağıllarda personajların adlandırılması ilə (padşah, kəndli, tacir və s.) gələcək konflikt müəyyən olur, personajlar əks tərəflərdə dururlar. "Padşah və dəmirçi" nağılında padşahın ədalətsiz və tələsik hökmlərinin insanlara ölüm, fəlakət gətirdiyi, sonrakı peşmançılığın heç bir nəticə verməyəcəyi, vaxtında ədalətli hökm çıxarmağın vacibliyi əks olunmuşdur. Şah dərdsiz adam axtarmaq üçün məmləkətini gəzir və dəmirçi ilə danışarkən gerçəkləri görür.

Satirik nağıllarda süjet mənfi qəhrəmanın rüsvay edilməsilə sona çatır. Bu baxımdan "Keçəl" nağılı səciyyəvidir. Nağılda təsvir olunur ki, xəsis tacir keçəli axşama qədər işlədib quru çörək qırıntıları ilə yola salır. Təhqirə dözməyən keçəl taciri hiylə ilə yorğana sarıdıb döydürür. Bundan sonra hadisələr məişət çərçivəsində olsa da, qeyri-adi şəkildə davam edir. Burada kontaminasiya (süjet içində süjet – A.Q.) var: tacirin arvadı ilə darğanın buraya əlavə olunması, Nağılda keçəlin ağıl və fərasəti nəticəsində tacirin xəsisliyi, darğanın riyakarlığı üzə çıxır (Bax: Əliyev O., 2005:63).

Satirik nağıllarda mənfi qəhrəmanın xarakterindəki hər hansı bir mühüm xüsusiyyət mübaliğəli şəkildə verilir. Keçələ iki abbasılıq qoyunu beş tümənə satan molla içalatı da istəyir, üstəlik sabah arvadının libasını dəyişdirib keçəlin evində müftə yemək yeməyə gedir. Ancaq keçəlin fərasəti nəticəsində Mollanın kələyi açılır. Molla yüz tümən verib qardaşı oğlu kimi təqdim etdiyi arvadını keçəlin əlindən alır (Əliyev O., 2005:64).

3. İnsan xarakterində, ailə münasibətlərində olan nöqsanların ələ salındığı məişət nağılları

Bu tip nağıllarda isə insanların xarakterində, ailə münasibətlərində olan mənfi adətlər, nöqsanlar ələ salınır. Bu mövzuda yaradılan nağıllarda yumor üstünlük təşkil edir. Məsələn, "Dəlisov arvad", "Altı dul arvad", Dad Xanpərinin əlindən, nağılları. Bu nağıllarda əsasən qəhrəmanların çatışmayan cəhətləri ələ salınaraq, lağ hədəfinə çevrilərək ifşa edilir və tənqid olunur. Nağıldakı qəhrəmanın mənfi xü-

susiyyətlərinin ələ salındığını görən dinləyici həmin xüsusiyyətlərə malik olmamağa çalışır. Məsələn, "Dad Xanpərinin əlindən" nağılında paxıl arvad və əri ilə münasibətini, "Dəlisov arvad nağılı"nda ağılsız arvad ərinin sirrini saxlaya bilməməsini vurğulaya bilərik.

Bu tip nağıllarda mənfi xüsusiyyətlə yanaşı, qəhrəmanların müsbət xüsusiyyətləri də təsvir olunur. Məsələn, "Haxnəzər" nağılında arvad ağıllı və tədbirli təsvir edilir. Hətta tənbəl ər belə tərbiyə edilir.

Məişət nağıllarının mənşəyi

Məişət nağıllarının mövzusu kimi, mənşəyi də müxtəlifdir. Müdrik cavab, məsləhət haqqında süjetlər qədim mərasimdən, toy qaydalarından doğur, yelbeyin, fərsiz barədə, quldur və oğrulardan bəhs edən süjetlərin mənbəyi məişətlə bağlıdır, mülkədar və mollalar barədəki nağıllar isə ictimai ziddiyyətlərdən törəyir. Bütün bu nağılları həqiqətin bir prinsipinə görə təsvir olunması əsasında bir janr qrupunda birləşdirmək olar.

Məişət nağıllarının öz süjet xətti, obrazları, öz spesifik bədii üsulları var. Bundan başqa bu tip nağıllarda hərəkət kəndli məkanında inkişaf edir. Kənd daxmaları, evləri, ağa malikanəsi, meşələr, çöllər, yaxın şəhər, karvansaray, dükan, bazar və s. yerlər gələcək hadisələr üçün zəmin təşkil edir (Əliyev O., 2005:53).

Sehrli nağıllarla müqayisədə məişət nağılları üçün ənənəvi formulların (nağılların içində ənənəvi ifadələr – A.Q.), gözəl epitetlərin, çoxsaylı təkrarların səciyyəvi olmadığını

(Əliyev O., 2005:67) qeyd edən O.Əliyev bunun səbəbini məişət nağıllarında gündəlik həyatın təsvirinin, hadisələrin iştirakçılarının (kəndli, tacir, muzdur, molla, qazı və s.) sehrli nağılların təmtəraqlı üslubunu qəbul etməməsi ilə izah edir (Əliyev O., 2005:67).

Ev tapşırığı: Məişət nağıllarını təhlil etmək

Nağılların formaca bölgüsü: *Kumilyativ, yaxud zəncirləmə nağıllar*

Bəzi nağıllarda hadisələrin, bəzən isə cümlələrin təkrarı tez-tez baş verir. Bu tərz nağıllarda hadisələr silsiləsi baş vermir. Bütün nağıl bir olay üzərində qurulur və süjet xətti belə davam edir. Məsələn, məşhur "Turpun nağılı"nda olduğu kimi. Turpu çıxarmaq üçün nənə babadan, baba turpdan yapışır. Dartırlar, dartırlar çıxara bilmirlər. Nəvə köməyə gəlir. Nəvə nənədən, nənə babadan, baba turpdan yapışır, dartırlar, dartırlar çıxara bilmirlər. və s. bu nağılda işlənən cümlələr bir-birinin təkrarıdır. Sadəcə, hadisəyə qatılan yeni obraz fərqlənir. Bu, kumilyasiya hadisəsidir. Kumilyasiya latın sözü olub yığmaq, toplamaq, gücləndirmək mənasını verir. İngilis dilində bu nağıllar "formula tales", alman dilində "kettenmarchen", fransız dilində isə "randounes" adlandırılır (Rüstəmzadə İ., 2013:31). Azərbaycanca isə "zəncirvari nağıllar" adlanır. Zəncirvari sözünün beynəlxalq termin kimi qarşılığı kumilyativ nağıllar ifadəsidir. İfadə latınca "cumulare" sözündən yaranmışdır ki, mənası yığmaq, gücləndirmək anlamındadır.

Bu nağılları Azərbaycan folklorşünaslığında geniş şəkildə İ.Rüstəmzadə araşdırmışdır. O, "Azərbaycan nağıllarının süjet göstəricisi" adlı kitabında zəncirvari nağılları tədqiqata cəlb etmiş, dünya folklorşünaslığında bu nağıla münasibəti aydınlaşdırmağa çalışmışdır. İlkin Rüstəmzadə kumilyativ nağılları məzmunca fərqləndirsə də, əslində bu nağıllar formaca bölgüdə verilməlidir. Zəncirvari nağılların formaca xüsusiyyətinə görə verilməsi fikrini bu nağılları rus

folklorşünaslığında ilk dəfə araşdıran V.Y.Propp özünün "Kumilyativ nağıllar" adlı məqaləsində də vurğulamışdır (Пропп В.Я., 1976:242-260). V.Y.Propp Aarne-Andreyev göstəricisində zəncirvari nağılların lətifələr qrupunda "Müxtəlif növ kumiylativ nağıllar" (*2015 I) adı ilə verildiyini göstərmiş və Andreyevin rus nağıllarından xəbərsiz olduğunu bildirmişdir. Aarnedən sonra N.P.Andreyev heyvanlar haqqında nağılların tərkibində verdiyi bir çox süjetləri də bura daxil etməklə onların sırasını daha da genişləndirmişdir.

Azərbaycan folklorşünaslığında isə İlkin Rüstəmzadə kumilyativ nağılların özünün tərtib etdiyi süjet kataloqunda yerini belə göstərmişdir:

Süjetlərin qruplar üzrə nisbəti 6;

Qarşılığını tapdığı süjetləri 0;

Qarşılığını tapmadığı süjetlər üzrə 6 olduğunu göstərmişdir (Rüstəmzadə İ. 2013). Buradan belə bir nəticəyə gələ bilərik ki, Azərbaycan folklorşünaslığındakı zəncirvari nağılların süjeti orijinaldır.

V.Y.Propp kompozisiya xüsusiyyətlərinə görə zəncirvari nağılları iki qrupa ayırmışdır: sintaktik halqaların təkrarı üzərində qurulan formulvari zəncirləmələr və eyni, lakin müxtəlif formalı epik halqaların təkrarı üzərində qurulan epik zəncirləmələr (Пропп В.Я., 1976:242-260). İlkin Rüstəmzadə də V.Y.Proppun bu fikri ilə razılaşmış və zəncirvari nağılların tədqiqatını bu yöndə aparmışdır. Belə ki, o, bildirmişdir ki, birinci qrupa məxsus nağıllarda hər yeni halqa qoşulduqda əvvəlki halqaya məxsus sintaktik vahid-

lər təkrarlanır. "Bit və birə", "Buz və qarı" nağılları buna misal ola bilər. İkinci qrupa məxsus nağıllarda isə, zəncirləmələr daha təfsilatlı və sintaktik cəhətdən fərqli epik lövhələr üzərində qurulur. "Dəyişmə", "Tülkü, tülkü, tünbəki" və s. nağıllar bu qrupa daxildir (Rüstəmzadə İ., 2013).

Zəncirvari nağıllarda heyvan obrazları danışır və insani xüsusiyyət daşıyır. Buna görə çox vaxt bu nağıllar heyvanlar haqqında nağıllara aid edilir. Ancaq zəncirləmə nağıllarda süjet sadədir və təkrar üzərində qurulur. Yəni, "Süjetlərin təfsilatdan uzaqlaşması, təhkiyə hissəsinin mümkün qədər qısaldılması, statik elementlərin kənarlaşdırılması nağıla dinamiklik gətirmiş və onu dialoqlara çevirmişdir" (Rüstəmzadə İ., 2013:33). Bu tərz nağıllarda olaylar müxtəlif və ardıcıl olmur, eyni süjet təkrarlanır.

Heyvanlar haqqında nağıllarda hadisələr dinləyicidə ibrətamiz keyfiyyət aşılaması üçün qurulursa, "Zəncirvari nağıllarda hadisənin özü deyil, onun təqdimatı maraq doğurur. Onlar çox vaxt əhəmiyyətsiz bir hadisə üzərində qurulur. Amma müəyyən fəaliyyətlərin təkrar edilməsi dinləyicini intizarda saxlayır və onda nağılın nə ilə tamamlanacağına maraq oyadır. Zəncirvari nağılların əsas özəlliyi ondadır ki, onlar bu və ya digər bir fəaliyyətin təkrarı üzərində qurulur. Bu sıralanma zəncirləməni yaradan səbəbin aradan qaldırılması ilə tamamlanır," (Rüstəmzadə İ., 2013:33). Yəni zəncirləmə - eyni süjetin dəfələrlə təkrarı bu nağılların əsas xarakterik xüsusiyyətidir. Zəncirləmə isə bəzən beş bəzən daha çox ola bilər. Önəmli olan bu zəncirləmənin yaranmasıdır ki, "zəncirləməni yaradan əsas səbəblərdən biri əşyaların dəyişdirilməsidir. Dəyişmə ya azalan, ya da artan istiqamət-

də aparılır. Artan istiqamətdə aparılan dəyişmə zamanı hər dəfə əldə edilən əşyanın dəyəri bir qədər artır" (Rüstəmzadə İ., 2013:33). "Cik-cik xanım" nağılında sərçənin ayağına tikan batır. Bu hadisə artıq "süjet xəttinin qurulmasına" şərait yaradır. Belə ki, sərçə tikanı qarıya verərək çörək, çörəyi çobana verərək qoyun, qoyunu toy yiyəsinə verərərək gəlin, gəlini aşığa verərək saz alır. Sonluq isə yenə də zəncirvari nağıllar üçün xarakterik sonluqla bitir: Sərçə qoz ağacının altında oturub saz çalarkən başına qoz düşür. Bu örnəkdə zəncirləməni artan istiqamətdə gördük. "Dəyişmə" nağılında isə kəndli bazara satmağa inək aparır. İnəyi keçiyə, keçini qaza, qazı arpaya və s. dəyişir və evə bir torba turşu ilə qayıdır (Bax: Rüstəmzadə İ., 2013:34).

Bəzi nağıllarda isə zəncirləmə şikayət üzərində qurulur. "Milçək" nağılında milçəyin qarnı qaratikan koluna ilişib cırılır. O, koldan inəyə, inəkdən qurda, qurddan ovçuya, ovçudan qarıya şikayət edir. Qarının onun xahişini yerinə yetirməsi ilə zəncirləmə bu dəfə əks istiqamətdə inkişaf edir və nağıl kolun milçəyin qarnını tikməsi ilə tamamlanır (Bax: Rüstəmzadə İ., 2013:34).

"Buz və qarı" nağılında isə zəncirləmə qarının inəyinin buz üstündə sürüşüb yıxılması ilə başlayır. Qarı inəyini yıxdığı üçün buzu, buz günəşi, günəş buludu, bulud yağışı və s. özündən güclü sayır (Bax: Rüstəmzadə İ., 2013:34).

"Bit və birə" nağılında isə birənin damdan yıxılıb ölməsi zəncirləmənin yaranmasına səbəb olur. Bit ağlayır, ona qoşulub sərçə ağlayır, qarı səhəngini vurub sındırır və s. Personajların əhəmiyyətsiz bir hadisə üzərində üz-gözlərini

yarmaları, özlərinə xəsarət yetirmələri nağıla yumoristik məzmun verir (Bax: Rüstəmzadə İ., 2013:34).

Yuxarıda qeyd etdik ki, zəncirləmə nağıllar əsasən heyvanlar haqqında nağılların sadələşdirilmiş formasıdır. Burada həm insan həm heyvan obrazlarını görə bilirik. Bəzilərində isə sadəcə heyvan obrazı ilə qarşılaşırıq. Ama bəzi hallarda zəncirləmə nağıllarda obrazlar sadəcə insanlardan ibarət olur. Bu zaman nağılda hadisə əhəmiyyətsiz məsələnin təkrarı üzərində qurulmur, əksinə tərbiyəvi əhəmiyyət daşıyan məsələ üzərində qurulur. "Loğmanla şəyird" nağılı məhz bu baxımdan xarakterikdir.

Son olaraq vurğulamaq istərdik ki, zəncirləmə nağıllardakı təkrarlar nağıllardakı üçləmələr ilə səhv salınır. Səbəb isə odur ki, fəaliyyət yaxud süjet təkrarlanır. Ancaq "zəncirvari nağıllarda bütün süjet zəncirləmə üzərində qurulur, üçləmə isə süjeti təşkil edən hansısa bir fəaliyyətin və ya gedişin üçlənməsi nəticəsində yaranır. Zəncirvari nağıllarda təkrarların sayında heç bir məhdudiyyət yoxdur, üçləmədə isə fəaliyyətin və ya gedişlərin təkrarı üçdən artıq olmur" (Rüstəmzadə İ., 2013: 35).

Zəncirləmə nağıllar istər mövzusuna və mahiyyətinə, istərsə də quruluşuna görə indiyədək öyrəndiyimiz bütün nağıllardan fərqlənir. Bu nağıllarda ibrətamiz xüsusiyyətlərin aşılanması digər qrup nağıllardakı qədər çox olmasa da, əsasən nağılın məqsədi zəncirləmələrin təkrarını hafizədə saxlamağa məcbur etməklə uşaqların yaddaşının güclənməsinə, yadda saxlanan bilgilərin beyində konkretləşməsinə yardımçı olmaqdır.

Kumilyativ nağıllarda süjet, motiv, formul, funksiyaya çox rastlanmadığından (rastlansa belə bunların nağıl mətni üçün ciddi bir əhəmiyyəti olmadığından) təklif edirik ki, bu nağılların təhlili əsasən, onun xüsusiyyətlərinə uyğun aparılsın. Yəni, halqanın azalan, artan, dəyişən, şikayət və s. üzərində qurulduğu müəyyənləşdirilsin.

Ev tapşırığı: Kumilyativ nağılları oxumaq və onları təhlilə cəlb etmək

Süjet, motiv və kontaminasiya anlayışları, nağılların təşkilində onların rolu

Süjet və motiv anlayışı

Süjet (fr. sujet – əşya, predmet) – Ədəbi əsərin məzmununu təşkil edən, ardıcıl inkişaf edən hadisələr kimi başa düşülür.

D.N.Uşakovun lüğətində süjet bədii əsərin əsas məzmununun şərh edildiyi hərəkət və hadisələrin məcmusu kimi verilir.

Süjet əlaqələr, ziddiyyətlər, hüsnü-rəğbət, nifrət və ümumən insanların bir-birilə münasibəti, bu və ya başqa bir xarakterin, tipin tarixi və təşkilidir.

Əsli fransızca olan süjet sözünün bədii ədəbiyyatda mənası hərəkət, hadisə və tiplərin əsərdəki məzmunla əlaqədar olan məcmusudur. O, xarakterləri açmaq, konkret hadisələri cəmləşdirmək üçün bir vasitədir. Süjet epik, dramatik, hətta lirik əsərlərdə də olur. Lirik əsərlərdə süjet olduqda ona süjetli lirika deyilir.

Tiplər və onların xasiyyətlərinin necə inkişaf etməsi, başqa adamlarla əlaqəsi, hadisələrdəki inkişaf xətti süjetin əsasını təşkil edir. Hər hansı bədii əsərdəki əhvalat və hadisə müəyyən bir məqsəd daşıyır, bir və ya bir neçə süjet xətti üzərində qurulur.

Əsərdə verilən əhvalatın, tiplərin, hadisələrin inkişaf etdirilməsi süjetin inkişaf etdirilməsidir. Yazıçı insanları və onların hadisələrə olan əlaqəsini göstərmək üçün faktları seçib ümumiləşdirir, səciyyəvi saydığı hadisələri verir.

Motiv sözü latınca motivum sözündən alınmışdır. Bizcə, motiv nəqletmənin ən kiçik formasıdır. Bu sözü biz tez-tez gündəlik həyatımızda musiqidə, naxışda və s. işlədirik. Ancaq qeyd edək ki, motiv ədəbiyyat və bu sahələr arasında xeyli fərqlənir. Hətta dastan, lətifə, nağıl, əfsanədə belə motiv anlayışı bir-birindən fərqlənir. Stit Tompson "Motif İndex of Folk-Literature (Xalq ədəbiyyatının motiv indeksi)" əsərində folklorun nəsrlə olan bütün mətnlərindəki motivləri öz kataloqunda toplamışdır. Bu katloqda toplanan motivlərin fərqli olduğunu artıq qeyd etdik. Məsələn, kataloqda S. hərfi adı altında verilən "Anormal zülmlər" motivi rəvayətlərdə çox rastlandığı halda, nağıllarda görülmür.

Rusiya folklorşünaslığında Aleksandr Nikolayeviç Vesselovski motivi "тема" (məzmun, mövzu) şəklində ifadə etmiş və belə tərif etmişdir: "Hekayənin parçalanmayan ən kiçik hissəsidir". (htpp: A.N.Veselovski)

Rusiya folklorşünaslarından Vladimir Yakovleviç Propp motiv haqqında funksiya ifadəsini işlətmişdir (htpp: Propp V).

Şübhəsiz ki, motiv üzərində ən ciddi araşdırma məhz Stit Tompsona aiddir və onun tərifi belədir: "Qədim zamandan üzü bu yana yaşayan nağılların ən kiçik ünsürüdür" (Thompson S.: İnt). Bizim motiv haqqında tərifimiz belədir: Motiv mətnin özündə milliliyi ehtiva etməklə, dinləyicini ram etməyi bacaran və ilkin şəklindən yeni formasına keçid ala bilmək üçün az, yaxud çox hissəyə parçalanan ünsürləridir.

Motivlər Azərbaycanda ayrı-ayrı folklorşünasların əsərlərində özünü göstərir. Məhəmmədhüseyn Təhmasib, Paşa

Əfəndiyev, Vaqif Vəliyev, Azad Nəbiyev, Oruc Əliyev də öz tədqiqatlarında nağılların motiv və süjet tərkibinə önəmli yer vermişlər. İlkin Rüstəmzadə isə sistemli şəkildə tədqiq etmiş süjet göstəricilərini ilk dəfə ortaya qoymuşdur.

Türkiyə folklorşünaslığında motivlə bağlı araşdırma ilk dəfə Pertev Naili Boratavın adı ilə hallanır. Eberhardla birlikdə aşkarladıqları 378 nağıl tipinin süjet və motiv tərkibini də göstərmişlər. Daha sonra Bilge Seyidoğlu motiv üzərində ciddi araşdırma aparmışdır. 72 nağıl tipini aşkarladıqdan sonra Tompsonun kataloqundakı yerlərini göstərmişdir. Son dönəmlər Saim Sakaolu və Ali Berat Alptekin də nağıllar haqqında araşdırmalarında motiv və süjet məsələsinə öz münasibətlərini bildirmişlər.

Stit Tompsonun motiv kataloqu: *A.Mifoloji motivlər*, *B. Heyvanlar, C. Yasaq, D. Sehr, E. Ölüm, F. Xariqüladəliklər, G. Divlər, H.İmtahanlar, J. Ağıllılar və axmaqlar, K. Aldatmalar, M. Gələcəyin təyini, P. Cəmiyyət, Q. Mükafatlar və cəzalar, R. Əsirlər və qaçaqlar, S. Anormal zülmlər, T. Cinsiyyət, U. Həyatın təbiəti, V. Din, W. Xarakter xüsusiyyətləri, X. Yumor, Z. Müxtəlif motiv qrupları.*

Nağıllarda səyyar motiv və mövzular

Stit Tompson 1930-32-ci illər arasında özünün 6 cildlik "Xalq ədəbiyyatının motiv indeksi" adlı kitabını yazır. Bu kitab nağıl tədqiqində daha bir ilk olur. Belə ki, ilk dəfə olaraq nağılların motivləri sistemli şəkildə kataloqlaşdırılır. Tompson motivləri 23 başlıq altında birləşdirir:

A. Mifoloji motivlər (mifoloji heyvanlar, pəri, cin, ruh, şeytan);

B. Heyvanlar (mifoloji heyvanlar, sehrli heyvanlar, sehr edə bilən heyvanlar, insani xüsusiyyətlər verilən heyvanlar, dost heyvanlar, köməkçi heyvanlar, heyvan ilə insanın evlənməsi və s.);

C. Qadağa (qeyri-adi təbii varlıqlara qarşı qadağa, cinsi qadağa yeyib-içmək ilə əlaqəli qadağa, baxmaqla əlaqəli qadağa, danışmaq ilə əlaqəli qadağa, müxtəlif qadağalar);

D. Sehr (çevrilmələr – (insanın fərqli bir heyvana çevrilməsi, insanın əşyaya çevrilməsi, heyvanın insana çevrilməsi, çevrilmənin digər şəkilləri, çevrilmənin mənaları, müxtəlif çevrilmələr), sehrin pozulması, sehrli əşyalar, onların funksiyaları);

E. Ölüm (diriltmə, xortlamışlar, yenidən dirilmə, ruh);

F. Xariqüladəliklər (digər dünyalara səyahətlər, xariqüladə canlılar – pəri, cin, ruh, şeytan, xariqüladə yer və əşyalar, hadisələr);

G. Divlər (divlərin hakimiyyətinə girmək, adamyeyən divlər, dost divlər, güclü və heybətli divlər, canı başqa yerdə olan divlər);

H.İmtahanlar (sınaq imtahanı, tanıma imtahanı, doğruluq imtahanı, evlənmə imtahanları, ağıl imtahanı, cəsarət imtahanı, qəhrəmanlıq imtahanı, digər imtahanlar);

J. Ağıllılar və axmaqlar (qazanılan və əldə edilən ağıl, ağıllı və ağılsız davranışlar, ağıllılıq, axmaqlar və digər ağılsız insanlar);

K. Aldatmalar (aldadaraq bir müsabiqəni qazanmaq, aldadıcı anlaşmalar, oğurluqlar və hiylələr, aldatma yolu ilə qaçma, aldatma yolu ilə yaxalanma, tale ilə bağlı aldatmalar, aldadanın öz qazdığı quyuya düşməsi, saxta ittihamlar, alçaq və xəyanət edənlər, digər aldatmalar);

L.Taleyin tərs dönməsi (ən cavan olanın qələbəsi, taleyi üzünə gülməyən qəhrəman, təvazökarlığın mükafatla nəticələnməsi, zəif və taqətsiz olanın qələbəsi, kibrin alçaqlıq gətirməsi);

M. Gələcəyin təyini (hökmlər və qərarlar, and və sözlər, anlaşmalar, kəhanətlər, bəddualar);

N. Şans və tale (mərclər və qumarlar, şansın və talenin yolları, şanssız qəzalar, şanslı təsadüflər, aşkarlanan sahibsiz xəzinə, digər şanslı təsadüflər və qarşılaşmalar)

P. Cəmiyyət (şahlıq və əsilzadəlik, digər sosial qurumlar, ailə, digər sosial qohumluqlar, işlər və məsləklər, hökmlər, idarə etmə, adətlər, cəmiyyət ilə bağlı müxtəlif motivlər);

Q. Mükafatlar və cəzalar (cəzalar və mükafatlar, cəzaların və mükafatların növləri);

R. Əsirlər və qaçaqlar (əsirlər, qaçaqlar, qaçmalar, təkrar ələ keçmələr);

S. Anormal zülmlər (zalım qohumluqlar, qorxunc qətliamlar, yaxud şikəst etmələr, tərk edilmiş, yaxud öldürülmüş uşaqlar, zalım işkəncələr);

T. Cinsiyyət (sevgi, evlilik, evlilik həyatı, namus və bakirəlik, qadağan olunmuş cinsi münasibətlər, hamilə qalma, doğum, uşaqların tərbiyəsi)

U. Həyatın təbiəti (Həyatın bərabərsizliyi, ədalət və ədalətsizlik, güclülərin hüquqları, sərvət və yoxsulluq və s.)

V. Din (dini mərasimlər, dini tikililər və əşyalar, müqəddəs şəxslər, dini inanışlar, dini güclər, müxtəlif dini motivlər);

W. Xarakter xüsusiyyətləri (gözəl və çirkin xarakter xüsusiyyətləri, müxtəlif xarakter xüsusiyyətləri);

X. Yumor (mizah) (qabiliyyətsizliyin yumoru, karlığın yumoru, korluğun yumoru, obrazların düşdüyü gülməli vəziyyətlər və s.)

Z. Müxtəlif motiv qrupları. (formullar, simbolizm, qəhrəmanlar, istisnalar)

Nağıllarda səyyar (gəzərgi) süjetlər

Nağıllarda bir sıra süjetlər var ki, dünyanın müxtəlif yerlərində bu nağıllar müxtəlif motivli olsalar da, eyni süjet xəttinə malikdirlər. Biz bunu *gəzərgi süjetlər* adlandıracağıq. Gəzərgi süjetlər dedikdə müxtəlif xalqların folklorunda mövcud olan eyni süjet xəttinin görünməsi nəzərdə tutulur. Bu nağıllar beynəlxalqdır və həmin nağılların analoqu bütün xalqların folklorunda mütləq mövcuddur. Bu nağılları milliləşdirən isə motivlərdir. Motivlər xalqın sahib olduğu dünyagörüşü, inanc sistemi, gündəlik məişəti əsasında formalaşdığından millilik xüsusiyyətini qoruyub saxlaya bilir. Məsələn, dünyada məşhur olan "Sindrella" nağılı Azərbaycanda "Göyçək Fatma" nağılı ilə eyni süjet xəttinə malikdir. Hər iki nağılda qız ögey anası və ögey bacısının zülmünə məruz qalır. Şahın təşkil etiyi toya (balo) gedir və ayaqqabısının bir tayını itirir. Şahzadə bu taykeş ayaqqabını tapır, sahibini axtarır və onunla evlənir. Nağılın qısa süjet xətti eynidir. Ancaq genişləndikcə, motivlər ortaya çıxdıqca fərqliliklər də özünü göstərməyə başlayır. Belə ki, "Sindrella" nağılı birbaşa ananın ölümü və ögey ananın iki ögey bacı ilə Sindrellanın yaşadığı evə gəlməsi ilə başlayır. "Göyçək Fatma" nağılında isə ananın ölümü ətraflı təsvir olunur, hətta ananın qızına vəsiyyəti göstərilir. Ana ölüm ayağında qızına qara inəyə yaxşı qulluq etməyi tapşırır. Burada qısaca haşiyəyə çıxıb qeyd etməliyəm ki, inək motivinin nağıla əlavə olunması təsadüf sayılmamalıdır. Çünki məişətimizdə inək önəmli rol oynayır. Ətindən, südündən, dərisindən, peyinindən faydalanılan heyvana sevgi də çox idi. Lakin qara inəyin həm də buynuzu var ki, buynuzlu heyvanlar qə-

dim türk mifologiyasında Tanrının yerdəki elçiləri hesab edilirdilər (Qəzənfərqızı A., 2018:13). Daha sonra Sindrellanın köməkçiləri quşlar və digər ev heyvanları, yaxud digər bir variantda gözəl pəri anası yardım etsə də, Azərbaycan variantında qara inəyin sümükləri və Fatmanın mehribanlığı sayəsində yardım üçün tükünü verən qarı kömək edir. "Sindrella"da balqabaq faytona çevrilir ki, balqabaq soyuq ölkələrdə çox yayılmış tərəvəz növüdür. Xüsusən, Halloven bayramında balqabağa çox müraciət olunduğunu qeyd edə bilərik.

Diqqət etməli olduğumuz başqa bir variant isə odur ki, Sindrella gözəl bir qız kimi təsvir edilir. Göyçək Fatmanın gözəlliyi isə mehribanlığı sayəsində verilir. Belə ki, küləyin uçurduğu əlçiminin dalınca qaçan Fatma bir qarıya rast gəlir, ondan əlçimini istəyir. Qarı isə şərt qoyur ki, gərək başına baxsın, sonra əlçimini verəcək. Fatma razılaşır. Qarının ilan qurbağalı saçını oxşayır, qarı ilə çox mehriban davranır və qarı ona üç sudan danışır.Ağ suda çimməyi, qara suda saçını, qaşını, kipriklərini yumağı, qırmızı sudan yanağına, dodaqlarına sürməyi tapşırır. Bunlara əməl edən Fatma gözəlləşir ki, bu da Azərbaycan əxlaq nəzəriyyəsini ehtiva etmiş olur. Çünki, cəmiyyətimizdə gözəllik daxili və xarici olmaqla bir bütün halında olmasa qəbul edilmir. Üstəlik gözəl xasiyyət mütləq öz mükafatını almış olur ki, Fatma mehribanlığı qarşılığında gözəlləşir, Fatmanın ögey bacısı isə bir az da çirkinləşir. Nağılın ən milli motivi isə Fatmanın təndirdən tapılmasıdır. Çünki təndir kültürü dünyada sadəcə Türklərdə mövcuddur ki, bu da nağılda öz əksini tapmışdır.

Beləliklə, nağılın süjetləri beynəlxalq olsa da, motivlərinin əsasən milli olduğunu vurğulamış olduq. Bu motivlər o xalqa məxsus nağıl mətnlərində tez-tez təkrarlana bilər. Ancaq bəzən də olur ki, bir neçə nağılın süjet xətti bir nağılda birləşir. Bu kontaminasiya hadisəsi sayılır.

Kontaminasiya hadisəsi:

Kontaminasiya ilk dəfə kimyəvi maddələrin bir-birinə qarışımı hadisəsini ifadə etmək üçün işlədilmiş termindir. Bu termin folklorşünaslıqda iki və daha artıq süjetin eyni nağıl daxilində birləşməsidir. Burada əsasən söyləyicinin iradəsi rol oynayır. Belə ki, söyləyici danışdığı obrazın xarakterik xüsusiyyətini daha çox dinləyicinin nəzərinə çatdırmaq üçün, yaxud təkrar ilə auditoriyanı yormamaq üçün, yaxud dinləyicilərin diqqətini sınamaq məqsədilə bildiyi digər nağıllardan bəzi danışdığı nağıl mətninə uyğun hissələri əlavə edir. Bu hadisə nağıllarda olduqca tez-tez qarşılaşdığımız vəziyyətdir. Ancaq maraqlıdır ki, mövzu yetərincə araşdırılmamışdır. Azərbaycan folklorşünaslığında bu mövzuya ilk dəfə İlkin Rüstəmzadə toxunsa da, dünya folklorşünaslığında ilk dəfə 20-ci əsrin 60-70-ci illərində N.M.Vedernikova və T.Q.İvanova müraciət etmişlər. N.M.Vedernikova kontaminasiyanı söyləyicinin nağıllar üzərində gerçəkləşdirdiyi yaradıcılıq hadisəsi hesab edirdi. Söyləyici hər dəfə eyni auditoriya qarşısında çıxış etdiyindən onun repertuarı dinləyicilərə tanış olur. Bu da onları improvizasiyaya sövq edir. Onlar süjetə yeni elementlər və motivlər daxil etməklə tanış nağılı bir qədər dəyişilmiş şəkildə təqdim etməyə, bu yolla da dinləyicilərdə maraq oyatmağa çalışırlar. Kontaminasiya

hadisəsini belə improvizasiya vasitələrindən biri hesab edən araşdırıcı yazır: "Nağılçı müəyyən bir nağılda məlum süjetləri birləşdirməklə tanış nağıl əsasında sanki yeni bir əsər yaradır. Dinləyici sevimli qəhrəmanları, ayrı-ayrı epizodları asanlıqla tanıyır, lakin bütövlükdə fəaliyyətin gözlənilməz inkişafı auditoriyada marağın artmasına səbəb olur" (Bax: Rüstəmzadə İ., 2013:51).

Kontaminasiya süjet, motiv, formul, funksiya kimi nağılın əsas strukturunu təşkil edir. Kontaminasiyanın işlənməsi tamamilə söyləyicinin iradəsinə bağlıdır.

Ev tapşırığı: beş nağıl mətni oxuyub süjet, motiv və kontaminasiyanı müəyyən etmək.

Nağılların süjet tərkibi (beynəlxalq və milli süjetlər)

Fin məktəbi və nağılların süjet göstəricisi. Beynəlxalq nağıl süjetləri. Anti Aarne və Stit Tompsonun süjet kataloqu. Ölkə folklorşünaslığında kataloqlaşdırılma ilə bağlı görülən işlər.

Nağılların orijinallığı, yaranma tarixi, yayılma arealı hər zaman alimlərin diqqətini cəlb etmişdir. Bu məsələ alimləri o qədər cəlb etmişdir ki, bir çox məktəblər məhz bu məsələlərin həllini ortaya qoymaq istəmişdir. Mifoloji, tarixi-iqtibas, etnoqrafik nəzəriyyələr nağılların yaranması və yayılması məsələlərini hələ tam həll etməmiş, onların orijinallığını coğrafi və tarixi metodla ortaya qoymağa çalışan yeni bir məktəb – Fin məktəbi ortaya çıxmışdır. Bu məktəbin əsas xidməti nağılların sistemləşdirilməsi və orijinallığının ortaya qoymaq olmuşdur.

Qeyd edək ki, bu nəzəriyyə ilk folklor nəzəriyyəsi və metodu hesab edilir. Əslində bu nəzəriyyə nağılların təhlili üçün ortaya atılsa da, daha sonra digər folklor janrları üçün də tətbiq edilir. Bunun məntiqi ardıcıllığı olaraq S.Tompsonun məşhur "Motif İndex of Folk Literature (Xalq ədəbiyyatının motiv indeksləri)" adlı əsəri ortaya çıxmışdır.

Bu məktəbin uğursuzluğa uğramasının səbəbi folkloru xalqdan deyil, aristokratik təbəqədən toplayıb təhlil etmələridir. Hər şeyə ideoloji yöndən yanaşan, manqurtlaşdırma siyasətinə xidmət etməyən bütün nəzəriyyələri inkar edən bir çox sovet folklorşünasları da aristokratik təbəqənin təbliğ edilməsini apardıqları siyasətə uyğun hesab etməyərək,

demək olar ki, məktəbi görməzdən gəlmişlər. Bir neçə məqalə istisna olmaqla, bu məktəbə dair elə bir ciddi araşdırmaya rast gəlmək mümkün deyil.

"Bu metodologiya əsasən kollektiv yaradıcılığı qəbul etməmələri, folklorun aristokratik təbəqə tərəfindən yaradıldığını iddia etmələri, süjetləri onların mövcud olduğu ictimai-siyasi mühitdən kənarda öyrənmələri kimi müddəalardan ibarət idi. Məhz buna görə də bir çox məqalələrdə ondan bir burjua məktəbi kimi bəhs olunurdu" (Rüstəmzadə İ., 2013:10-12).

Rus folklorşünaslığında bu məktəb ancaq N.P.Andreyevin timsalında özünə tərəfdar tapmış, lakin sonradan o da fin metodunun faydasızlığını görüb ondan uzaqlaşmışdır. Azərbaycan folklorşünaslığına gəldikdə isə, V.Vəliyev, P.Əfəndiyev və A.Nəbiyevin ali məktəb tələbələri üçün yazdığı dərsliklərdəki qısa məlumatdan savayı, bu məktəb haqqında elə bir ciddi araşdırmaya rast gəlinmir (Rüstəmzadə İ., 2013:10-12).

Fin məktəbinin mühüm bir cəhəti də nəzəriyyənin Darvinin təkamül nəzəriyyəsi ilə olan yaxınlığıdır. "Fin məktəbi folklor nümunələrinin araşdırılması zamanı coğrafi-tarixi metoddan və ya yarandığı ölkənin adı ilə tanınan "fin metodu"ndan istifadə edirdi. Bu metod folklorşünaslıqda darvinizmin folklora adaptasiyası kimi qiymətləndirilir" (Rüstəmzadə İ., 2013:10-12). Göründüyü kimi, XIX əsrin II yarısında Avropada Ç.Darvinin geniş yayılmış təkamül nəzəriyyəsində irəli sürülmüş flora və faunanın mənşəyini axtararkən irəli sürdüyü metodu nağıl mətnlərinin mənşəyini axtarmaq üçün tətbiq edirlər. Bu zaman ortaya coğrafi-tari-

xi metod çıxır. Fin metodun əsasını Y.Konkka "Fin ədəbiyyatı tarixi. Kalevala" əsəri ilə qoymuşdur. Bəs tarixi-coğrafi metod nədir?

Y.Kron "Kalevala" poemasının orijinal variantını öyrənməyə çalışır. Bunun üçün əvvəlcə onun variantlarını toplayır. Daha sonra ona əlavə olunmuş motivləri, obrazları müəyyənləşdirməyə çalışır. Bunun üçün "Kalevala" "poemalarının yarandığı yeri, onların səyahət marşrutunu müəyyənləşdirməyə, finlərlə başqa xalqların epik poeziyaları arasındakı qarşılıqlı əlaqələri nəzərdən keçirməyə çalışmışdır" (Rüstəmzadə İ., 2013:12). Müəyyən etmişdir ki, poemanın mətni bir birinə yaxın bölgələrdə yerləşərsə bənzərliklər də çox olur. Bölgələr arasındakı məsafə uzaqlaşdıqca variantları arasındakı bənzərliklər azalır, fərqlər çoxalır. Yəni mətnlər coğrafi ardıcıllıqla yeni variantlarını törədir. Belə ki, I variant əsasında II, II variant əsasında III və s. formalaşır. Coğrafi inkişaf anlayışı da buradan doğur. Y.Krona görə, süjetlərin inkişafı həm də tarixi metodla baş verir. Tarixi metod isə əsasən yaşlı nəsildən gənc nəslə ötürülmə ilə gerçəkləşir. Yəni babanın danışdığı nağılı nəvə öz əlavələri ilə söyləyir. Əslində bu metod şərti xarakter daşıyır. Çünki yaşlı nəslin danışdığı nağıl arxivlənmədiyi üçün nəvənin oraya hansı əlavələri etdiyini müəyyənləşdirmək qəliz məsələdir. Y.Kronnun vaxtsız ölümü başladığı işi yarımçıq qoysa da, oğlu Kaarle Kron bu işi davam etdirmişdir. Y.Kron Kalevala poemaları üzərində araşdırmaları zamanı müəyyən etmişdir ki, nağıl mətnlərini təhlil edərkən Y.Kronun gəldiyi digər nəticə isə odur ki, söyləyici nağılı danışarkən bəzən mətnin bir hissəsini ixtisar etdiyi kimi, ora əlavələr də

edə bilir. Bunlar yaddaşın itməsi, əlavələr və genişlənmə kimi psixoloji qanunlar hesab olunur. Yaddaşın itməsi qanununa əsasən söyləyici kontaminasiya hadisəsini gerçəkləşdirir, yəni bildiyi digər mətnlərdən istifadə edir və unutduğu hissəni qismən geri qaytarır. Genişlənmə isə süjetə məxsus bəzi fəaliyyət və gedişlərin üçlənməsi (üç dəfə təkrarlanması) ilə yəni, eyni nağıl daxilində bir neçə süjetin birləşməsi hesabına baş verir.

Fin məktəbinin üstünlüyü onda idi ki, bütün variantlar toplanıb təhlilə cəlb edilirdi ki, bu zaman süjetlərin yayılması zamanı itən və əlavə olan motivləri müəyyənləşdirmək qismən mümkün olurdu. Məktəb təhlili müqayisə prinsipi əsasında aparırdı: nəsr əsərlərində motivlər, nəzm əsərlərində isə misralar üzrə.

Məktəb orijinallığı tapmaq üçün 4 tələb irəli sürür: birincisi odur ki, motivə nə qədər çox rast gəlinirsə, o qədər orijinaldır, motiv nə qədər geniş əraziyə yayılmışsa, orijinallığı müəyyənləşdirmək o qədər çətinləşir, motiv nə qədər maraqlı və məşhurdursa qorunması və yayılması da o qədər asan baş verir, nağıllardakı motivlərin təbii ardıcıllığı onun qədimliyinin göstəricisidir (Goldberg C., 1984:12)

Fin məktəbinin çatışmazlığı nağılları xalqın içindən deyil aristokratlardan toplaması idi. Bu səbəbdən də nəzəriyyə özünü doğrulda bilmədən süquta uğramışdır.

Beynəlxalq nağıl süjetləri. A.Aarne və A.Tompsonun süjet kataloqu

Nağılların süjet göstəricilərinə görə qruplaşdırılması fin alimi Anti Aarnenin adı ilə bağlıdır. O 1910-cu ildə nağılları üç əsas başlıqda bölərək bunları da daxili başlıqlara ayırmışdır:

1. Heyvanlar haqqında nağıllar – 1-299

a) bəzi vəhşi heyvanlar – 1-99

b) vəhşi və evcil heyvanlar – 100-149

c) insan və vəhşi heyvanlar – 150-199

ç) ev heyvanları – 200-219

d) quşlar – 220-249

e) balıqlar – 250-274

ə) digər heyvanlar və anlayışlar – 275-299

2. Əsl xalq nağılları – 300-1199

a) sehirli nağıllar – 300-749

b) əfsanə tərzində nağıllar – 750-849

c) qısa hekayə tərzində nağıllar – 850-999

ç) axmaq div nağılları – 1000-1199

3. Lətifələr 1200-1999

Aarnenin kataloqunda son nömrə 1999 göstərilsə də əslində sadəcə 500 tipdə nağıl təhlil edilmişdir. Həm də Aarne heyvanlar haqqında nağıllara və lətifələrə çox yer verdiyindən buradakı nağıllar tək tip olaraq da qəbul edilir. Digər kataloq isə Stit Tompsona aiddir. Tompsonun kataloqu üç başlıqdan beş başlığa artmışdır. Hər başlıqda ya-

rımbaşlıqların da sayları artmışdır və beləliklə, dünya nağıllarının süjet kataloqunu ehtiva etməyə çalışmışdır.

1.Heyvanlar haqqında nağıllar – 1-299

a) vəhşi heyvanlar və evcil heyvanlar

b) insan və vəhşi heyvanlar

c) evcil heyvanlar

ç) quşlar

d) balıqlar

e) digər heyvan və nəsnələr

2. Gerçək xalq nağılları – 300-1199

a) sehrli nağıllar – 300-749

b) dini nağıllar – 750-849

c) romantik nağıllar

ç) axmaq div nağılları

3. Zarafatlar və anekdotlar – 1200-1999

4. Xüsusi formul ilə başlayan nağıllar – 2000-2399

5. Təsnifata daxil olmayan nağıllar – 1928 (Sakaoğlu S., 2007:12)

Türkiyədən toplanan nağılların təsnifatının aparılması 1940-cı illərin ortalarında başlamışdır. Bir məqalə ilə mətbuatda çıxış edən Volfram Eberhard və Pertev Naili Boratav daha sonra 1953-cü ildə 2500 nağıl üzərində 378 nağıl tipi ortaya çıxarırlar. Zamanla Türkiyədə nağılların süjet göstəriciləri 1000-ə çatsa da, burada ən böyük yetərsizlik yeni toplanacaq nağıl süjetlərinin yerlərinin boş qoyulması olmuşdur.

Eberhard ve Boratav kataloqu isə belədir:

1. heyvanlar haqqında nağıllar – 1-21;

2. heyvan və insan – 22-33;

3. heyvan, yaxud bir ruh insana yardım edir – 34-82;

4. qeyri adi ruh, yaxud heyvan ilə evlənmə – 83-109;

5. xeyirxah ruh, yaxud övliyalar ilə yaşamaq – 110-122;

6. taleyin hökmü – 123-142;

7. yuxu – 143-145;

8. pis ruhlar ilə yaşama – 146-168;

9. sehrbazlar – 168-184;

10. bir qız sevgili tapır – 185-196;

11. bir oğlan sevgili tapır – 197-222;

12. kasıb qız varlı oğlan ilə evlənir – 223-238;

13. qısqanclıq və böhtan – 239-255;

14. alçaldılan böyük qəhrəman – 256-258;

15. zina və başdan çıxarma – 259-280;

16. qəribə əməllər və hadisələr – 281-289;

17. qəribə məhkəmələr – 290-301;

18. realist nağıllar – 302-310;

19.qəribə təsadüflər – 311-316;

20. komik hadisələr – 317 -322;

21. axmaq və tənbəl kişilər və qadınlar – 323-338;

22. oğru və dedektivlər – 339-349;

23. ağıllı, hiyləgər yaxud simic kişi və qadınlar – 350-378 (Sakaoğlu S., 2007:14).

Azərbaycan folklorşünaslığında nağıl süjeti ilə bağlı araşdırmalar

Azərbaycan folklorşünaslığında nağılların süjet göstəricisini ilk dəfə İlkin Rüstəmzadə işləmişdir. İ.Rüstəmzadənin bu məsələ ilə bağlı xidməti olduqca böyükdür. Onun "Azərbaycan nağıllarının süjet göstəriciləri" adlı kitabı 2013-cü ildə nəşr olunmuşdur. Kitabda Azərbaycan nağıllarının böyük əksəriyyəti tədqiqata cəlb edilmişdir. Azərbaycan nağıllarının süjet kataloqu belədir:

Süjetlərin qruplar üzrə nisbətini İlkin Rüstəmzadə aşağıdakı şəkildə vermişdir:

Nağıl qrupları	Süjetlərin qruplar üzrə nisbəti	Qarşılığı tapılan süjetlər	Qarşılığı tapılmayan süjetlər
I.Heyvanlar haqqında nağıllar	86	57	29
II. Əsl nağılları: a) Sehrli nağıllar b)Dini nağıllar c) Novellavari nağıllar d) Axmaq şeytan haqqında	 110 67 178 25	 68 22 58 17	 42 45 120 8
III. Lətifələr	126	71	55
IV. Zəncirvari nağıllar	6	–	6
V. Bahadırlıq nağılları	20	–	20
Cəmi	618	293	325

(Rüstəmzadə İ., 2013:58)

Göründüyü kimi, Azərbaycan nağıllarına məxsus 618 süjet müəyyən edilib. Bunlardan 86-sı heyvanlar haqqında nağıllara, 110-u sehrli, 67-si dini, 178-i novellavari, 25-i axmaq şeytan haqqında nağıllara, 126-sı lətifələrə, 6-sı zəncirvari nağıllara, 20-si isə bahadırlıq nağıllarına məxsus süjetlərdir. Süjetlərin qruplar üzrə sayı yuxarıdakı cədvəldə əks olunmuşdur (Rüstəmzadə İ., 2013:58).

Azərbaycan nağılları arasında beynəlxalq süjetlərin o qədər də böyük çəkisi yoxdur. Süjet repertuarının 47,4%-ni Aarne-Tompson göstəricisində qarşılığı olan, 52,6%-ni isə yeni süjetlər təşkil edir. Ən çox fərqliliyə novellavari və dini nağıllar qrupunda rast gəlinir. Novellavari nağılların süjet tərkibinin 67,4%-ni, dini nağılların 67,1%-ni, sehrli nağılların 38,1%-ni, heyvanlar haqqında nağılların 33,7%-ni, axmaq şeytan haqqında nağılların 32%-ni, lətifələrin isə 43,6%-ni beynəlxalq kataloqda qarşılığı olmayan süjetlər təşkil edir (Rüstəmzadə İ., 2013).

Beynəlxalq süjetlərə ən çox axmaq şeytan haqqında nağıllar qrupunda rast gəlinir. Ancaq bəzi yerli süjetlər vardır ki, onlara beynəlxalq süjetlər arasında rast gəlinmir. Məsələn, yeddi qardaşın bacısı, tülkünün gəlinin zinət əşyalarını oğurlaması, tənbəl qurd, pəriyə aşiq olmuş oğlan, gəlininə aşiq olmuş ata və s. süjetlər öz orijinallıqları ilə seçilirlər.

Ev tapşırığı: 30 nağılın süjet göstəricilərini Aarne-Tompson, Eberhard-Boratav və İlkin Rüstəmzadə kataloqları üzrə müəyyənləşdirmək.

Nağıllarda formul

Formul nağıllarda önəmli ünsürdür. Nağıldan formul çıxarıldıqda mətn ya dastan, ya da rəvayət, lətifə və s. bənzəyəcək. Odur ki, nağıl mətnlərini digər mətnlərdən fərqləndirən önəmli ünsür məhz formullardır. Formul məsələsi bir çox alimlərin diqqət mərkəzində olmuşdur. Ona müxtəlif tərif vermişlər. Bütün təriflərdə formulların nağıllar üçün olan əhəmiyyəti vurğulanmışdır.

A.B.Alptekinin tərifi belədir: Nağılların strukturunda özünə yer tapmış, mətnlə çox da əlaqəsi olmayan, ancaq onunla bütünləşmiş ifadələrə formul deyilir. Formullar əsasən söyləyici ilə dinləyici arasındakı əlaqəni təşkil edir (Halk masal..., 2013:10). Y.V.Çəmənzəminli ənənəvi formulları nağılın zinəti hesab edir. O qeyd edir: "Üsula gəldikdə nağıl ədəbiyyatının müəyyən üsulu var. Onları gözəl edən və süsləndirən müəyyən dil, tərkib və cümlələrdir. Xalq ədəbiyyatı ilə maraqlananlar bu nöqtəni unudarlarsa, çəkdikləri zəhmət hədər olar" (Çəmənzəminli Y., 2005: 284). A. Lorda görə, formullar onların haqqında düşünüldüyü kimi donmuş klişelər deyil, əksinə onlar dəyişə bilir və onlardan yeni formullar yaranır (Bax: İsgəndərzadə V., 2014:8). Boratav və Eberhard: "Nağılların başlanğıcında giriş formulu olur: "Bir varmış, bir yokmuş..." Bu formul bir "təkərləmə" ilə davam edə bilər. Sonra əhvalatların əsas hissəsinə keçməzdən əvvəl qəhrəmanın durumu, həyatı, həmçinin doğuluşu və gəncliyinin təsvir olunduğu kiçik bir hissə gəlir. Ardınca nağılın əsas hissəsi başlayır. Sonda isə sonluq formulu gəlir. Şər uduzur və ya qırx gün, qırx gecə davam edən toy

olur, yaxud digər xoşbəxt sonluqla yaxşı qəhrəmanlar və eyni zamanda dinləyicilər sevinirlər (Bax: İsgəndərzadə V., 2014:8). Burada dinləyici belə bir arzu irəli sürür: "Onlar ermiş muradına, biz de erelim muradımıza". Bəzən söyləyici zarafatla, maraq üçün oxucunu mükafatlandırır: "Göydən üç alma düşdü". Sonra almaların üç nəfər arasında bölünməsi gözlənilir, ancaq o, söylədiyi nağılın əvəzində almaların hər üçünü özünə götürür. Ənənəvi formul deyərkən, epik təhkiyədə istifadə olunan qəlibləşmiş söz, ifadə və ya sözlər qrupu nəzərdə tutulur. Bir çox mənbələrdə fərqli şəkildə izah olunan "ənənəvi formul" müxtəlif terminlərlə ifadə olunur. Dilçilik lüğətində "formul" termini "frazeologizm", "klişe", "ştamp", "stereotip" terminləri ilə sinonim kimi verilir. Mövcud məsələ ilə bağlı araşdırdığımız mənbələrdə aşağıdakı terminlərə rast gəlinir: dayanıqlı yerlər, tipik yerlər, ənənəvi formullar, epik formullar, tipik ifadələr, qəlib ifadələr, stereotiplər, ənənəvi yerlər, klişelər, təkrarlamalar, daimi epitetlər, metrik söz qrupları, şablonlar, tematik standartlar, dayanıqlı müqayisələr və məcazlar, hərəkətli hissələr, obrazlı stereotiplər, stilistik klişelər, dayanıqlı söz kompleksləri, frazeologizmlər, kümə sözlər və s. Məzmunca, əhatəlilik baxımından daha uğurlu, çox rast gəlinən və kifayət qədər həcmli ifadə "ənənəvi formul" terminidir (İsgəndərzadə V., 2014:9).

V.Y.Proppun "ümumi yerlər" adlandırdığı formullar xalq yaradıcılığı və tətbiqi incəsənətdə öyrənilmişdir. Nağılın məhz ənənələr, miflər, ilkin təsəvvür formalarının və bir sıra sosial institutların vasitəsilə izahının mümkünlüyünü sübut edən V.Propp ənənəvi formullardan söz açılanda, on-

ları arxaik mədəniyyət kontekstində anlamaq lazım olduğunu bildirmişdir (Пропп В. 1957: 457). Amerikan mədəniyyətşünası Con Kavelti məşhur "Formul nəqli incəsənət və populyar mədəniyyət kimi" əsərində formulu "çoxlu sayda əsərlərdə istifadə olunan təhkiyə və dramaturji konvensiyaların strukturu" kimi müəyyən etmişdir (Cawelti, J. 1976:121).

Göründüyü kimi, formulların əsasən funksiyası, yeri müəyyən edilməyə çalışılmışdır. Onların struktur-tipoloji yöndən araşdırılması ilk dəfə Rumıniya alimi N.Roşiyanuya məxsusdur. N.Roşiyanu bir sıra Slavyan, Qərbi Avropa və Şərq xalqlarının nağıl mətnlərinin əsasında formulları, onların elementlərinin tərkibini öyrənmiş, funksional xüsusiyyətlərini müəyyən etmişdir. N.Roşiyanunun tədqiqatlarına əsaslanaraq, N.M.Gerasimova rus xalq nağıllarının strukturunu araşdırmışdır. Bu problemin linqvistik yöndən analizi isə O.A.Davıdovaya məxsusdur.

Dastanların formul nəzəriyyəsini öyrənən K.Vəliyev də formulun təsnifatının bilavasitə dil birliklərinə uyğun olduğunu vurğulayır: 1) Söz-formulu (metafora); 2) Söz birləşməsi-formulu (bədii vəsflər); 3) Cümlə-formulu (atalar sözləri, hikmətli sözlər); 4) Mürəkkəb sintaktik bütünlük- formulu (şeir) (Vəliyev K., 1984: 143). Onun fikrincə, bu ümumi modellər öz tərkib hissələrinə bölünür. Alqış, qarğış, bədii vəsf, paralel inşalar, atalar sözləri, təkərləmə ifadələri və s. uyğun modelin ünsürü kimi ortaya çıxır. Bu dil birliklərinin uyğun modellərinə N.Roşiyanunun araşdırmasında da rast gəlinir.

Müasir dövrdə Türkiyə folklorşünaslarından M.H.Yavuz, N.Taner, M.Gökçəoğlu xalq nağılları üzərində çalışmalarını davam etdirirlər. Kıbrıs nağıllarını toplayan tədqiqatçı M.Gökçəoğlu ənənəvi formulların "Kıbrıs türk küme sözler (formeller)" sözlüyünü hazırlamışdır. Burada o, küme sözü altında ənənəvi tapmacaların, atalar sözlərinin, təkərləmələrin daxil olduğu bütün formulları təqdim etmişdir (Bax: Vəfa İsgəndərzadə, 2014: 8).

Bu günə qədər Azərbaycanda nağıl janrına həsr olunmuş bir sıra araşdırmalar mövcuddur. Ancaq onların heç birində nağıl formulları xüsusi şəkildə araşdırmaya cəlb olunmamışdır. O.Əliyev "Azərbaycan nağıllarının poetikası" adlı monoqrafiyasında nağıl formullarından bir qədər ətraflı bəhs etmişdir. Ayrı-ayrı dərsliklərdə isə nağıl formullarına ötəri şəkildə toxunulmuşdur.

Azərbaycanda nağıl formulları mövzusuna sistemli şəkildə ilk dəfə Vəfa İsgəndərzadə toxunmuşdur. Onun "Ənənəvi nağıl formulları" kitabında Azərbaycan-Türkiyə və Şimali Kipr nağıllarının müqayisəli ənənəvi formulları verilmişdir.

V.İsgəndərzadə öz tədqiqatında formulları aşağıdakı kimi bölür:

1. Başlanğıc (giriş), təhkiyə və sonluq formulları. Başlanğıc formullarını da öz növbəsində iki yerə bölür:

a) zaman formulları
b) məkan formulları
1. Təhkiyə formullarını da ikiyə bölür:
a) xarici təhkiyə

b) daxili təhkiyə

2. Sonluq formullarını isə bölgüyə tabe tutmur.

Zaman formullarını "Biri var idi, biri yox idi" və Allahın mövcudluğu ilə bağlı formullar, zamanla bağlı formullar, qarışıq formullar, sicilləmələrə; Məkan formullarını naməlum yer adları ilə bağlı formullar, məlum yer adları ilə bağlı formullar, qarışıq formullara bölür.

Xarici təhkiyə formullarını dinləyicinin diqqətini cəlb etmək üçün onlarda maraq oyadan formullara (buna daxildir: atalar sözləri və deyimlərlə dinləyicidə maraq oyadan formullar, fasilə verərək dinləyicidə maraq oyadan formullar, bədii təsvir vasitəsilə dinləyicidə maraq oyadan formullar, qəhrəmanın fəaliyyəti ilə xaricən bağlı formullar), dinləyicilərin diqqətini yoxlamaq üçün formullar, keçid formullarına (buna daxildir: vaxtın tez keçməsi ilə bağlı formullar, uşağın tez böyüməsi və hamilə qadınlarla bağlı formullar) bölür.

Daxili təhkiyə formullarını qəhrəmanların simasını müəyyən edən formullar (buraya daxildir: kişi qəhrəmanların simasını təsvir edən formullar, yeni doğulmuş körpələri təsvir edən formullar, mənfi obrazları təsvir edən formullar, təbiət hadisələri ilə bağlı formullar, qəhrəmanın adını təsvir edən formullar, qəhrəmanın yaşadığı sarayları, bağ-bağatları təsvir edən formullar, əşyaları və canlı varlıqların qızılı təsvirini verən formullar, qızılın və gümüşün semantik cütlüyü olan formullar), personajların hərəkətini, fəaliyyətini təsvir edən formullar (buraya daxildir: uzaq məsafəni getməyi təsvir edən formullar, qorxulu, çətin keçilər yerləri

təsvir edən formullar), dialoqa girən formullar, magik formullar, başlanğıc formullarına xarakterik olan daxili təhkiyə formulları (buraya daxildir: atalar sözü və məsəllərlə bağlı formullar) şəklində təsnif edir.

Sonluq formullarını isə söyləyicinin padşahın qonaqlığında iştirakı və xoş gün-güzəranla bağlı formullara, söyləyici fəaliyyəti ilə bağlı formullara, söyləyicinin dinləyiciyə yönəlməsi ilə bağlı formullara (bura daxildir: "göydən üç alma düşdü" formulu və onun variantları, qarışıq sonluq formulları, atalar sözü və deyimlərdən ibarət sonluq formulları, nağılın məzmunu ilə bağlı olmayan ritmik formullar və sadə sonluq formulları) bölmüş və bu şəkildə bölgü aparmışdır (İsgəndərzadə V. 2014: 149-198). Bu bölgü həddindən artıq xırdalığı da nəzərə alaraq göstərilmişdir. Düşünürük ki, kitab nağıl tədqiqatçısı üçün olduqca gözəl materialdır. Ancaq bizim məqsədimiz tələbələrin nağıl formullarını daha tez idrak etməsi olduğundan bu formulları bir qədər sadələşdirib, əlavələr artıraraq belə verməyi məsləhət bildik:

1.Giriş formulları

a) Sadə başlanğıc formulları: "Biri var imiş, biri yox imiş" yaxud "keçmiş zamanda", "bir zamanlar" şəklində olur. Bəzən bu başlanğıclar birləşir. Odur ki, biri varmış, biri yox imiş ilə başlayan formulları bu şəkildə fərqləndirə bilərik:

Biri var imiş, biri yox imiş bir filankəs var imiş.

Biri var imiş, biri yox imiş, bir zamanlar bir padşah var imiş.

Biri var imiş, biri yoxuymuş, Allahdan başqa heç kim yoxuymuş, bir ..... var imiş

Biri var imiş, biri yox imiş bir zamanlar bir məmləkətdə bir .... var imiş

b) Qaravəlli ilə başlayan giriş formulları: bunlar "biri varmış, biri yox imiş" formulunun qismən genişlənmiş şəklidir. Əsasən dinləyicini nağılın süjetinə hazırlamaq məqsədini güdür. Məsələn: *Badi-badi giriftar, hamam-hamam içində, xəlbir saman içində, dəvə dəlləklik edər köhnə hamam içində. Qarışqa şıllaq atdı, dəvənin qıçı batdı. Hamamçının tası yox, baltaçının baltası. Orda bir tazı gördüm, onun da xaltası yox. Ömrümdə çox şilaşı yemişəm, heç belə yalan deməmişəm* (Azərbaycan..., 2005:71-IV c), yaxud "*Həkan-həkan içində, qoz girdəkan içində, dəvə dəlləklik edər qoz girdəkan içində. Qarışqa şıllaq atdı, dəvənin qıçı batdı, milçək mindik, körpü keçdik, yabaynan dovğa içdik. Şah Abbas cənnət-məkan, tərəziyə vurdu təkan. İki qoz bir girdəkan. Günlərin bir günündə Sizə kimdən xəbər verim, Şah oğlu Şah Abbasdan"* (Azərbaycan..., 2005:76-IV c).

2.Təhkiyə formulları

a) Keçid formulları (yaxud Xarici təhkiyə formulları): bu formullar çox önəmlidir. Çünki nağılda bir olaydan digərinə keçidin daha maraqlı, süjet xəttinə zərər verməyəcək şəkildə olmasına, dinləyicinin marağının daha da artmasına, uzun zamanların qısalmasına xidmət edir. Həmçinin nağıllarda üç, yeddi, qırx kimi müqəddəs rəqəmlərdən istifadə edərək hadisənin gerçəkliyini vurğulamağa çalışan söyləyi-

cinin işinin asanlaşmasına, nağılın maraqlı olmasına şərait yaradır. Məsələn, *"Bunlar burda qalsın, sənə kimdən deyim filankəsdən", "Sizə kimdən deyim, nədən danışım", "Evə girəndə nə görsə yaxşıdır, hər tərəf tərtərmiz silinib, süpürülüb", "Gözünü yumub açdı ki, filan məmləkətdədir", "Az getdilər, uz getdilər, dərə təpə düz getdilər" , "Padşahın üç qızı və üç oğlu var idi", "bunlar yeddi qardaş idilər", "Padşahın üç oğlunun kiçiyi ən ağıllısı idi", "Sarayın qırx otağı var idi, bunun otuz doqquzu kilidsiz, biri kilidli olardı"* və s.

b) Daxili təhkiyə formulları: bu formul tipi əsasən gözəlliyi, xarakteri təsvir etmək üçün işlədilir. Məsələn, *"elə gözəl idi ki, elə bil 15 gecəlik ay idi", "aya deyirdi sən çıxma mən çıxım, günə deyirdi sən çıxma mən çıxım", "var ipək qarı, var köpək qarı. Bu köpək qarılardan idi, idmindən zəhrimar yağırdı"* və s.

c) Zaman və yer formulları. Bu formullar nağıldakı hadisələrin baş verdiyi zamanı və yeri "müəyyənləşdirməyə" kömək edir. Əslində artıq vurğuladığımız kimi, nağılda yer və zaman qeyri-müəyyəndir. Hadisələr, yenə də bəzi məmləkətlərdə baş verirdi. Bu məmləkətlər isə əsasən Misir, Hindistan, Qaf dağının arxasında bir ölkə, Çin, Bağdad və s. olur. Zaman isə keçmişdə bir gün olur. Hadisələr "nağıl dili yüyrək olar" ifadəsi ilə sürətləndirilir, üç gün, beş gün, bir il çox sürətlə keçir.

3.Sonluq formulları

a) Xarakterik sonluqlar. Burada müsbət qəhrəmanlar yaxşılıqlarına görə mükafatlandırlır, mənfi qəhrəmanlar isə

pisliklərinə görə cəzalandırılır. “Bağban durdu. İki padşahın, iki vəzir, vəkilin, iki şah oğlunun, iki şah qızının, iki kürəkənin alnına qara damğa vurdu. Sonra Nərbala hər iki tərəfə dedi:

– Camaat, mən, bax, o iki dağın arasındakı qalaçada yaşayacağam, kim sizə zülm eləsə, mənə deyərsiz.

Nərbala sözünü qurtarıb anasını, bağbanı, bir də kiçik qızı götürüb qalaçaya getdi.

Deyirlər, nə qədər ki Nərbala sağ idi, qorxudan heç kim yoxsullara zülm eləyə bilmirdi.”

b) Təhkiyəvi sonluqlar: “Onlar yeyib içib yerə keçdilər”, “Göydən üç alma düşdü”, “Qırx gün qırx gecə toy etdilər” və s.

Ev tapşırığı: Müxtəlif nağılların formullarını müəyyənləşdirmək

Azərbaycan nağıllarının regional özəllikləri

Regionallıq önəmli mövzudur. Coğrafiya, iqlim, məişət və aid olduqları tayfalar bu xarakterik xüsusiyyətin formalaşmasında önəmli rol oynayır. Bu da onların istər nağıllarında, istərsə də digər bütün folklor mətnlərində fərqliliyə səbəb olur. Məsələn, Gəncə-Basar və Qarabağ bölgəsindən toplanmış bir nağılda tərəkəmə həyatına aid motivlər çox aktiv şəkildə yer alırkən, Şəki-Zaqatala bölgəsindən toplanmış nağıllarda daha çox oturaq həyat ilə bağlı motivlər mövcud olur. Yaxud Gəncə-Basar bölgəsində aşıq sənəti inkişaf etdiyi halda, Qarabağ bölgəsində muğam çox inkişaf edib. Yəni hər bir insan aid olduğu bölgənin bütün xarakterik xüsusiyyətini mənimsəyərək nağılı söyləyir. Artıq əvvəlki mövzularda qeyd etdiyimiz kimi, söyləyici azadlığı vardır. Söyləyici isə tanış olduğu, bildiyi kültür çərçivəsində bunu ifadə edir. Yəni, nağıl söyləyiciləri söyləyərkən yeni bir mətn ortaya qoymuş olurlar. Burada sadəcə söyləyicinin mətnə müdaxiləsinin güclü yaxud zəif olmasından söhbət gedə bilər. Elə buna görədir ki, eyni bir folklor nümunəsinin müxtəlif regionlardan toplanmış müxtəlif variantları mövcuddur.

Fikrimizi əsaslandırmaq üçün belə deyə bilərik ki, Şirvan nağılları içərisində Əmir Teymurla bağlı nağıllar xüsusilə çoxluq təşkil edir. Əmir Teymur haqqında olan bu mətnlərdə bu sərkərdənin adının verilməsi və bu mətnlərin məhz Şirvan bölgəsində mövcud olmasının sə-

bəbi bölgənin tarixi hadisələrin ortasında qalmasıdır. Əmir Teymurun bölgə əhalisinin yaddaşında qalmasıdır.

Yaxud deyək ki, Naxçıvan bölgəsindən toplanmış nağıllarda sehrli motivlər xüsusilə üstünlük təşkil edir. Məsələn: "Qırx Qönçə xanım", "Cəlayi-vətən", "Beçə dərviş", "Məlik Məhəmməd və Məlik Əhməd", "Caməs", "Şahzadə Bəndalı", "İsgəndərin dirilməsi", "Qırx qız", "Gülüqahqah", "Şahzadə Seyfəddin", "Çalıb-çağıran ağac", "İynədan", "Çoban Yusufun yuxusu", "Sehrli üzük", "Göygöz Kosa" və s. nağılları bu sıraya aid etmək olar. Oruc Əliyev qeyd edir ki, Naxçıvanda yayılmış müxtəlif bölüm süjetlərdə "yuxugörmə", "yuxuyozma", "yuxudəyişmə", "yuxusatma" bir vasitə kimi geniş yer tutur (Əliyev O., Azərbaycan nağılları... İnt.). Adlarını çəkdiyimiz nağıllarda yuxuyozumuna diqqət yetirsək bölgəsəl xarakter ortaya çıxmış olur. Doğrudur, yuxuda görülmüşlərin hansı çevrələrlə bağlılığını söyləmək asan deyil. Naxçıvan bölgəsindən toplanmış nağıllarda yuxuyozumunun naxçıvanlıların inam, etiqad, ailə-məişət tərzinin əks olunması ilə yozulması vacibdir. Fikrimizə bir örnək göstərək:

"Mərcan xanım" nağılında belə bir epizod var ki, Mərcan deyir ki, bəs hamısı bir biçimdə, bir rəngdə qırx bir dəst don tikin. Donlar tikilib qurtarır, geyilir. Mərcan gəzmək bəhanəsiynən bunları gəmini saxladığı yerə gətirib soruşur:

– Oy, ay qızlar, bu nədi belə?

Qızlar ömürlərində gəmi görməmişdilər. Ona görə də dedilər:

– Görmürsən dənizin üstündə otaqdı. Gəlin oturaq içində haxışta deyək. Haxışda Naxçıvan bölgəsində geniş yayılmış bir mərasim olduğu üçün bu nüansın nağıl mətnində özünə yer tapması qanunauyğunluq sayılmalıdır.

Qazax-Gəncə, Göyçə, Borçalı regionlarından toplanan nağıllarda saz, aşıq, qoyunun, çoban itinin sədaqətinin, qurdun pislənməsi motivlərinin şahidi oluruq. Yenə də burada inam, etiqad, ailə-məişət tərzinin özünəməxsus şəkildə nağıl mətnlərində yer alması faktı durur. Məsələn, "Sınağın nağılı"nda möcüzəli yolla dünyaya gələn qəhrəmanı hər şeydən çox babasından qalma saz maraqlandırır. O, səfərə çıxanda sazını da özü ilə aparır. Sevgilisinin yaşadığı şəhərə gələndə o, aşıq kimi gəlir. Yaxud "Narın xanımın nağılı"nda isə müdrik qoca qəhrəmana tilsimi ancaq sazla sındıra biləcəyini söyləyir. Oruc Əliyev vurğulayır ki, bu məsələ ilə bağlı tədqiqat aparan araşdırıcılar musiqi alətinin (qopuz, tambur, davul, saz, və s.) sehrli gücə malik olmasını, mifoloji təsəvvürə görə, onun ruhlar dünyası ilə bağlı olması ilə əlaqələndirirlər. Aşıq yaradacılığının təsiri qərb regionu nağıllarının obrazlarında, süjetlərində, poetik sistemində bu və ya digər dərəcədə özünü üzə çıxarır (Əliyev O. Azərbaycan nağıl...).

Nağılların ayrı-ayrı regionlar üzrə sistemli şəkildə toplanıb yazıya alınması nağıl haqqında daha geniş araşdırma aparıb, hərtərəfli öyrənməyə imkan verir.

Nağıl və yazılı ədəbiyyat

Yazılı ədəbiyyatdakı süjetlərin təməli əsasən şifahi xalq ədəbiyyatından alınmışdır. Tarix boyu bir çox şair və yazarımız öz əsərlərinin mövzusunu folklordan almışlar. Məsələn, elə Nizaminin və Füzulinin "Leyli və Məcnun" əsəri bildiyimiz kimi, məşhur rəvayətindən alınmışdır. Ancaq yazılı ədəbiyyatda folklor mətnlərinin kütləvi şəkildə istifadəsinə XIX-XX əsrlərdə başlanmışdır. Folklorla yazılı ədəbiyyatın yaxınlığı bir də milli özünə qayıdışla bağlıdır. Repressiyadan sonra aradan keçən 30-35 illik fasilə və 1960-cılar nəslinin ədəbiyyata gəlməsi ilə vəziyyət dəyişdi. Milli oyanış, milli özünüdərk 1970-80-ci illər ədəbiyyatının əsas aparıcı ideologiyası oldu.

Nağıl mətnlərinə müraciətin iki forması vardır: 1. Olduğu kimi saxlayaraq, 2. dəyişdirərək.

1. Yazıçı və şairlər folklor örnəklərini əsərlərinə olduğu kimi gətirir, süjet xəttində, motivlərdə əsaslı dəyişikliklər etmirlər. Məsələn, Y.V.Çəmənzəminli "Məlikməmməd", Ü. Hacıbəyli "Şəhər işləri" əsərlərini buna misal göstərə bilərik.

2. Hər bir yazıçı və şair düşüncə dünyasını, estetik üslubunu təyin etmək üçün folklor örnəklərinə müraciət edir ki, bu da mətnin alt qatında folklorun görünməsidir. Bu halda yazıçı qarşısında qoyduğu ideyanı, fikri qeyri-ixtiyari mənsub olduğu xalqın folklor mirasına baş vurmaqla həll edir. Süleyman Sani Axundovun Qorxulu nağıllar silsiləsini buna misal göstərmək olar.

Yazıçıların müraciət etdiyi folklor janrları sadəcə nağıl deyil, həm də digər folklor janrlarıdır. Məsələn, lətifələr C. Məmmədquluzadə, Ü.Hacıbəyli, S.Axundov, Ə.Haqverdiyev və s.-dir. Əfsanə janrından ən çox bəhrələnən S.M.Qənizadə, A.Divanbəyoğlu, A.Şaiq, və başqalarıdır. Atalar sözü və məsəllər isə C.Məmmədquluzadə, N.Nərimanov, Ü. Hacıbəyli, M.S.Ordubadi və digərlərinin yaradıcılığında özünü göstərir.

Qaynaqlar

KİTAB VƏ MƏQALƏLƏR:

Azərbaycan Türkçəsində:

Azərbaycan folkloru antlogiyası. (2006). *XVI kitab – Ağdaş folkloru,* Bakı:Səda.

Azərbaycan nağılları. (1960). Beş cilddə. I cild. Tərtibçi: Ə.Axundov, Bakı: Azərb.E.A.

Azərbaycan nağılları. (1962). Beş cilddə. III cild. Tərtibçi: Ə.Axundov, Bakı: Azərb.E.A.

Azərbaycan nağılları. (1964). Beş cilddə. V cild. Tərtibçi: Ə.Axundov, Bakı: Azərb.E.A

Azərbaycan nağılları. (2005). Beş cilddə. III cild. Tərtibçi: Ə.Axundov, Bakı:Şərq-Qərb

Çəmənzəminli Y. (2005). *Azərbaycan nağıllarının əhval-ruhiyyəsi*// Əsərləri, III c., Bakı: Avrasiya Press. 2005.

Əfəndiyev P. (1992). *Azərbaycan şifahi xalq ədəbiyyatı*. Bakı, Maarif,

Əliyev O. (2001). *Nağılların poetikası*. Bakı: Səda.

Hacıyev A. (1996). *Ədəbiyyat nəzəriyyəsi*. v.Bakı: Mütərcim

İsgəndərzadə Vəfa Zahid. (2014). *Ənənəvi nağıl formulları.* Bakı-Elm və təhsil.

Qəzənfərqızı A.,(2018). *Azərbaycan qumuq folklor əlaqələri.* Bakı: Elm və təhsil.

Rüstəmzadə İlkin. (2013) *Azərbaycan nağıllarının süjet göstəricisi* . Bakı:Elm və təhsil

Seyidov N. (1966). *Azərbaycan nağıllarının bədii xüsusiyyətlərinə dair qeydlər.* // Azərbaycan şifahi xalq ədəbiyyatına dair tədqiqlər. II kitab. Bakı: Azərb. E.A. s.-30-51.

Təhmasib M.,(1972). *Azərbaycan xalq dastanları*. Bakı: Elm

Vəliyev K. (1984). *Dastan poetikası*. Bakı: Yazıçı.

Türkiyə Türkçəsində:

Alangu Tahir. (2017). *Billur Köşk Masalları.* İstanbul: Yapı kredi yayınları. 352 s.

Alptekin Ali Berat. (2010). *Hayvan masalları*. Ankara : Akçağ

Alptekin Ali Berat.(2013). *Halk Masalları*. Ankara-Anadolu Ünversitesi

Altın başmak (1959).//*Kumuklanı yomakları və xabarları*. Mahaçkala, "Daqıstanı kitapbasması", № 2.

Altın başmak, 1979

Çığ İlmiyyə Muazzez (2003), *Sümer hayvan masalları*, İstanbul: kaynak yayınları, 24 s.

Gökalp Ziya. (2007). *Altın Işık.* 109 s. İstanbul: Toker yayınları

Sakaoğlu Saim. (2007). *Masal araştırmaları*. Ankara-Akçağ.

Türk halk edebiyatı terimleri sözlüğü. (2007). Düzenleyen: Dr. prof.Doğan Kaya. 1. Baskı, Ankara:Akçağ, 822 s.

İngilis dilində:

Cawelti, John (1977). *Adventure, Mystery, and Romance: Formula Stories as Art and Popular Culture*. Chicago, IL: University of Chicago Press. ISBN 0226098672.

'Mythology' in Samuel Johnson, *A Dictionary of the English Language*, London 1755, vol. 2, p. 1345.

Stith Thompson. (1946). *The folktale*. New York:Dryden press, 537 p.

The Concise Oxford Dictionary of English Etymology. (1986). edited by T. F. Hoad, Oxford, 307.]

Rus dilində:

Аникин В. (1971). *Сказки – Русское народное поэтическое творчество.* Москва: Просвещение

Багрий А. (1930). *Фольклор Азербайджана и приливющих стран.* т. I-III, Баку,

Волков Р. (1924). *Разыскания по сюжетосложению народной сказки.* Одесса.

Иванова Т. (1981). *К вопросу о контаминатции в вольшебной сказке (на материалы беломорских сказок)* / Русский Север: Проблемы этнографии и фольклора, Л.: Наука, с.233-247

Костюхин Е. (1987). *Типы и формы животного эпоса.* М.: Наука

Лихачев Д. (1971). *Поэтика древнетуркской литературы*. Лэнинград.

Мелетинский Е. (1958). *Герой вольшебной сказки.* Москва: Традиция

Мифы народов мира. (1987). Энциклопндия. Том 1. Москва:Советсувя Энциклопедия.

Новиков Н. (1974). *Образы восточнославянской волшебной сказки*. Лэнинград: Наука.

Померанцева Э. (1966). *Сказки –Русское народное творчество*. Москва.

Пропп В. (1957). *Указатель сюжетов / Народные русские сказки* А.М.Афанасьева. В 3-х т. Т.3, М., , с.454-502

Пропп В.Я. (1976). *Кумилятивная сказка / Фольклор и действительность*. М.: Наука, с.241-260

Пропп Я. (1976). *Проблемы комизма и смеха*. Москва: "Лабиринт"

Пропп Я. (1928). Морфология сказки. Ленинград: Академия

Рошияну Н. (1974). *Традиционные формулы сказки*. Москва: Наука,

Internet resursları

Aleksandr Nikolayeviç Vesselovski https://ru.wikipedia.org/wiki/%D0%9C%D0%BE%D1%82%D0%B8%D0%B2 Aleksandr Nikolayeviç Vesselovski_(%D0%BB%D0%B8%D1%82%D0%B5%D1%80%D0%B0%D1%82%D1%83%D1%80%D0%B0

Altı yoldaş nağılı. http://www.nagillar.az/article/a-198.html

BENFEY, THEODOR. http://www.iranicaonline.org/articles/benfey-theodor

Əliyev O. *Azərbaycan nağılları haqqında düşüncələr*. https://turuz.com/index/view/32e1dceed9e63f073798af037e911c0d3fcaa4de

Fairy tale. https://en.wikipedia.org/wiki/Fairy_tale

Kəlilə və Dimnə. http://elibrary.bsu.az/kis/1613.pdf

MacDonald George. *The fantastic imagination*. http://www.george-macdonald.com/etexts/fantastic_imagination.html

Propp Vladimir http://www.lib.ru/CULTURE/PROPP/morfologia.txt_with-big-pictures.html

Thompson Stith. *Motive Index of Folk Literature.* https://archive.org/stream/Thompson2016MotifIndex/Thompson_2016_Motif-Index#page/n281/mode/2up

Bəzi nağılların adları

1. Altı dul arvad
2. Dad xanpərinin əlindən
3. Haxnəzər
4. Qarı və buzov
5. Tülkü tülkü tünbəki
6. Turpun nağılı
7. Cik-cik xanımın nağılı
8. Loğmanla şəyirdi
9. Cantiqin nağılı
10. Yeddi qardaşlar
11. Şirvan qazisi
12. Keçəl
13. Tülkü baba və hacıleylək
14. Padşah və xoruz
15. Padşah və dəmirçi
16. Ağ atlı oğlan
17. Qaraqaşın nağılı